

Milli azadlıqdan şirin nemət yoxdur!

# Görüşlər davam edir...







Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 noyabr 2024-cü il, çərşənbə axşamı

№ 211 (6797)

Qiyməti 60 qəpik


# COP29 - sağlam və təmiz gələcək üçün mühüm yol...




Bax səh. 2

# 3 qardaş ölkənin yeni enerji ittifaqı

Bax səh. 3

# Zəngəzur dəhlizi açılır?



Bax səh. 5

## COP29 həm də şəffaflıq platformasıdır

Bakıda keçirilən COP29 yeni təşəbbüslər və ideyaların gerçəkləşməsi ilə yadda qalmaqdadır. COP29 tədbirinin ilk günlərindən iqlim maliyyəsi və hesabatlılıq məsələsi əsas mövzu kimi diqqətdə saxlanılıb. İlk gündəcə COP29-un ilk günündə Paris sazişinin 6.4 maddəsi (karbon bazarları) üzrə razılaşma əldə olunub. Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən bu saziş dayanıqlı maliyyələşmə üçün mühüm sütunlardan biridir. Eləcə də...

Bax səh. 4

## Süni zəka “yaşıl hədəflər”in sütununa çevrilir

COP29 çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin təşkilatçılığı ilə “Süni İntellektin təsiri: Texnoloji proqnozlaşdırma ilə rəqəmsal iqtisadiyyatda idarəetmənin yeni dövrü” mövzusunda keçirilən panel...

Bax səh. 4

## İqtisadi inkişaf sürətlənir

2024-cü ilin yanvar-oktyabr aylarında ölkəmizdə 103,5 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz çox ümumi daxili məhsul istehsal olunub. Əlavə dəyərin böyük bir hissəsi qeyri-neft yığım mənbələrindən formalaşıb. Belə ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz, qeyri neft-qaz sektorunda isə 6,8 faiz artıb. Eləcə də sənayedə, ələlxüsus da qeyri-neft sənayesində artım meyilləri yüksəlib. Ötən 10 ay ərzində 53,3 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə...

Bax səh. 4

## İcazə qərarı cəbhədə vəziyyəti dəyişəcəkmi?

Hazırda Rusiya və Ukrayna orduları arasında şiddətli döyüşlər davam edir. Beynəlxalq ictimaiyyətin müharibənin dayandırılması ilə bağlı çağırışları isə nəticə vermir. Əksinə, son vaxtlar Rusiya ordusu hücumlarını daha da gücləndirib və Ukrayna ərazisində yeni yaşayış məntəqələri ələ keçirir.

Belə bir şəraitdə Ukrayna hakimiyyəti Qərb ölkələrindən daha güclü dəstək istəyir. Belə ki, Prezident Zelenski uzun müddətdir...

Bax səh. 6

# Separatizm dəstəkçisinin iqlim “təəssübkeşliyi”...



Bax səh. 6

# Gürcüstanda parlament seçkiləri başa çatsa da...



Bax səh. 7

# Görüşlər davam edir...

## İkitərəfli münasibətlər inkişaf edir

**İlham Əliyev Rusiyanın maliyyə naziri və Dövlət Dumasında fraksiya rəhbəri ilə görüşüb**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Rusiya Federasiyasının maliyyə naziri Anton Siluanov və Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutski ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi bildirildi, bu görüşün əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından önəmi qeyd olundu.

Ölkələrimiz arasında ticarət dövriyyəsinin artması, milli valyutalarda ödənişlərin həyata keçirilməsi əlaqələrimizin möhkəmlənməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi.

## Yüksək səviyyədə ilk görüş

**Azərbaycan və Palau prezidentləri görüşüblər**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Palau Respublikasının Prezidenti Surangel Uipps ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Palau Prezidenti COP29-un yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Qonaq qeyd etdi ki, səfər çərçivəsində ölkəmizlə, mədəniyyətimizlə tanış olmaq imkanları olub. Bu görüşün Azərbaycan və Palau prezidentləri arasında yüksək səviyyədə ilk görüş olduğunu deyən Surangel Uipps bunun münasibətlərimizin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi.

Palau dövlətinin başçısı Azərbaycan Prezidenti və Azərbaycanın COP29-a Sədrliyi tərəfindən kiçik ada dövlətlərinin iqlim dəyişmələrinin təsiri nəticəsində onların üzləşdiyi problemlərin əsas prioritetlərdən biri kimi müəyyən edilməsinə görə təşəkkürlərini çatdırdı. O vurğuladı ki, kiçik ada dövlətləri iqlim dəyişmələrinin bilavasitə təsirinə məruz qalan və ekzistensional təhlükə ilə üzləşən ölkələrdir.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın sədrliyi dövründə kiçik ada dövlətlərinin üzləşdiyi iqlim problemləri əsas prioritet kimi qiymətləndirilib və kiçik ada dövlətlərinin iştirakı ilə məhz bu məsələyə həsr olunmuş Zirvə toplantısı keçirilib. Dövlətimizin başçısı Azərbaycanın Millətlər Birliyi (Commonwealth of Nations) təşkilatı ilə birlikdə kiçik ada dövlətlərinə xüsusi yardım proqramını həyata keçirdiyini dedi. Prezident İlham Əliyev bu xüsusda təşkilat çərçivəsində Azərbaycanın kosmik imkanlarını səfərbər edərək həmin dövlətlərin üzləşdiyi iqlim problemləri barədə məlumat bazası sisteminin yaradılması məsələsini qeyd etdi.



Prezident vurğuladı ki, on ildən artıqdır, Paris razılaşmasının 6-cı bəndi üzrə danışıqlar aparılsa da məhz Bakıda keçirilən COP29-da bununla bağlı irəliləyiş əldə olunub. Dövlətimizin başçısı bundan başqa, İtki və Zərərə Cavab Fondunun tam işlək olması istiqamətində tərəqqinin əldə edilməsini irəliyə doğru atılan mühüm addım kimi dəyərləndirdi.

Söhbət zamanı bütün dünyadan, xüsusilə də inkişaf etmiş dövlətlərdən yeni maliyyə hədəfləri ilə əlaqədar gözləntilərin olduğu qeyd edildi.

Palau Prezidenti dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdi.

## Kiçik ada dövlətlərinin iqlim problemləri daim diqqət mərkəzində saxlanılacaq

**Prezident İlham Əliyev Millətlər Birliyi təşkilatının Baş katibi ilə görüşüb**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Millətlər Birliyi təşkilatının (Commonwealth of Nations) Baş katibi Patrisia Canet Skotland ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Patrisia Canet Skotland COP29-un yüksək səviyyədə təşkilinə, ilk dəfə olaraq COP çərçivəsində kiçik ada dövlətləri ilə əlaqədar Zirvə toplantısının keçirilməsinə və Azərbaycanın COP Sədrliyinin prioritetləri sırasında bu dövlətlərin iqlim problemlərinin əsas istiqamətlərdən biri kimi müəyyən edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Qonaq Azərbaycanla Millətlər Birliyi təşkilatı arasında qurulmuş əməkdaşlığa, ölkəmizin bu təşkilata üzv kiçik ada dövlətləri ilə bağlı maliyyə dəstəyi fonduna görə də təşəkkürünü çatdırdı.

Millətlər Birliyi təşkilatının Baş katibi, həmçinin Azərbaycanın kosmik imkanlarını səfərbər edərək Millətlər Birliyinin üzvü olan kiçik ada dövlətlərinin üzləşdiyi iqlim problemlərinin təhlil edilməsini və məlumat bazası



sisteminin yaradılmasını təqdir etdiklərini dedi. O, ümumilikdə, Azərbaycanın sədrliyi dövründə kiçik ada dövlətləri ilə əlaqədar çoxsaylı tədbirlərin keçirildiyini və dünyanın kosmik agentliklərinin səylərinin də səfərbər edildiyini vurğuladı.

Patrisia Canet Skotland bundan sonra da Azərbaycanla əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP-a sədrliyi dövründə kiçik ada dövlətlərinin iqlim problemləri ilə bağlı onlarla əməkdaşlığı əsas istiqamətlərdən biri kimi müəyyən edib, ölkəmiz tərəfindən bununla əlaqədar Zirvə toplantısı keçirilib. Azərbaycanın Millətlər Birliyi təşkilatı ilə əməkdaşlığını davam etdirəcəyini deyən Prezident İlham Əliyev kiçik ada dövlətlərinin iqlim problemlərinin daim diqqət mərkəzində saxlanılacağını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində formalaşdırılmış həmrəyliyin məhz COP sədrliyi dövründə də davam etdiriləcəyini dedi.

Söhbət zamanı Azərbaycan ilə Millətlər Birliyi təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olundu.

# COP29 - sağlam və təmiz gələcək üçün mühüm yol...

Müasir çağırışlara hər zaman layiqli şəkildə cavab verən, yeni trendlərə qoşulan, bəşəriyyətin qorunması istiqamətində aparılan humanitar fəaliyyətdə daima ön sıralarda dayanan Azərbaycan COP29-a uğurla ev sahibliyi etməkdədir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflərinin 29-cu sessiyası qlobal miqyasda müzakirələr üçün yeni vəsilə oldu - xüsusilə, ölkəmizin regional və qlobal müstəvidə təqdim etdiyi yaşıl hədəflər, iqlim dəyişikliyi ilə mübarizə və ekoloji balansın qorunması sahəsində fəal addımları bu təd-

## Panel iclaslarında müzakirə edilən problemlər qlobal xarakter daşıyır

biri daha da yaddaqalan edib. Qeyd edək ki, Azərbaycan 2030-cu ilə qədər karbon emissiyalarını azaltmağı hədəfləyən strateji planlar hazırlayıb - dövlətin "yaşıl" enerji sahəsindəki təşəbbüsləri, alternativ və bərpa olunan enerji mənbələrinə diqqət ayırması, o cümlədən günəş və külək enerjisi sahəsində atılan addımlar xüsusilə diqqəti cəlb edir. Bu mənada, COP29 qlobal tədbir kimi mühüm amilləri özündə birləşdirir. Təsadüfi deyil ki, tədbirin baş tutduğu bu günlərdə Azərbaycan bütün dünyanın diqqət mərkəzindədir - COP29 çərçivəsində keçirilən görüşlər, konfranslar, panel iclasları və konkret olaraq ayrı-ayrı istiqamətlər üzrə ixtisaslaşdırılmış toplantılar iqlim dəyişikliyi ilə mübarizə metodologiyasına yeni təcrübələr qazandırır.

### Azərbaycanın qlobal iqlim proseslərinə töhfəsi...

Azərbaycan 29-cu COP samitinə ev sahibliyi etməsi ilə iqlim məsələlərində ön sıralarda təmsil olunmaq iddiasını əyani surətdə ortaya qoyur - bu, ölkəmizin yalnız enerji sahəsində deyil, həm də ekoloji və iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq arenada daha fəal iştirak etdiyinin göstəricisidir. Xüsusən su ehtiyatlarının idarə edilməsi, torpaqların mühafizəsi və bioloji müxtəlifliyin qorunması sahəsindəki təşəbbüslər, təqdim edilən yol xəritələri göz oxşayır - COP29 çərçivəsində Azərbaycanın qlobal iqlim proseslərinə töhfəsi saymaqla bitmir. COP29 qlobal iqlim probleminin həlli üçün konkret addımların müzakirə edildiyi və qlobal əməkdaşlıq ruhunun vurğulandığı mühüm platforma kimi özünü təsdiq edir. Məsələn, Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin açılışında onlarla ölkənin liderləri milli hədəflərini açıqladılar. Braziliya 2035-ci ilə qədər emissiyaları 67 faiz azaltmağı, Belçika iqlim maliyyəsini ikiqat artırmağı, Çin isə inkişaf etmiş ölkələri daha fəal addımlar atmağa çağırdı. Eyni zamanda, İspaniya və Türkiyə kimi ölkələr iqlim siyasətində milli nailiyyətlərini vurğuladılar.

### İqlimin qorunması əsas prioritetlərdəndir...

COP29 çərçivəsində nail olunmuş uğurlardan biri də "İtki və Zərər" Fondudur. İnkişaf etməkdə olan ölkələr üçün zəruri maliyyə dəstəyini təmin etmək məqsədilə təsis edilən bu fond, 2025-ci ildən etibarən fəaliyyətə başlayacaq. Təsadüfi deyil ki, COP29 prezidenti Muxtar Babayev, fondun qlobal ədalət üçün böyük qələbə olduğunu qeyd edib.

Metan və qeyri-CO? istixana qazları" mövzusunda keçirilən Sammitdə isə metan emissiyalarının azaldılması üçün yeni strategiyalar təqdim edildi. Sammit çərçivəsində yeni maliyyə öhdəlikləri də elan olundu.

Paralel olaraq yeni iqlim maliyyələşdirmə məqsədləri prioritet olaraq meydana çıxır. Bu məsələyə həsr olunan panel iclaslarında inkişaf etməkdə olan ölkələrə iqlim dəstəyi üçün maliyyələşmə məqsədlərini 2 trilyon dollara qədər genişləndirən təkliflər irəli sürüldü. Təklif olunan müddətlər 2029-2035-ci illəri əhatə edir.

Eyni zamanda, COP29 çərçivəsində Elm, Texnologiya və İnnovasiya/Rəqəmsallaşma Günü çərçivəsində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) təşkilatçılığı ilə "Rəqəmsal yaşıl üfüqlər: hökumət və texnoloji həllərin dayanıqlı gələcək üçün inteqrasiyası" mövzusunda tədbir keçirilib. Azərbaycanın rəqəmsal inkişaf strategiyasının vektorları, əldə edilən nailiyyətlər və yaxın perspektiv üçün qarşıda duran məqsədlərdən danışılıb - rəqəmsallaşmada əməkdaşlığın önəmi vurğulanıb. Bu prosesin böyük miqyasda reallaşması üçün digər dövlət qurumları ilə intensiv koordinasiyanın vacibliyinə diqqət çəkilib.

COP29 çərçivəsində "İqlim sağlamlığı böhranı: Çirklənmə orqanizmimizə və gələcəyimizə necə təsir edir" mövzusunda vorkşop təşkil olunub. Tədbirdə iqlim böhranının, çirklənmənin insan orqanizminə və gələcəyinə təsirindən bəhs edilib. Bildirilib ki, gələcəyimiz artıq risk altındadır. Çirklənmə təkcə ekoloji problem deyil, həm də sağlamlıq böhranıdır, ağciyərlərimizə, ürəyimizə və hətta beynimizə təsir edir. Təmiz hava haqqında danışarkən bu təkcə səmanı təmiz saxlamaqla bağlı deyil. Bu, ailələri astma və digər xəstəliklərdən qorumaqdır.

### Təhsil və yenilik vasitəsilə ilhamlandıran dəyişiklik

COP29 çərçivəsində gənclərin inkişafı da yaddan çıxmayıb - "İqlim dəyişikliyi ilə mübarizədə gənclərin liderliyi: Təhsil və yenilik vasitəsilə ilhamlandıran dəyişiklik" adlı panel təşkil olunub. Tədbir Sumqayıt Dövlət Universiteti və Oksford Universitetinin (Said Business School) təşkilatçılığı ilə reallaşıb. Tədbirin moderatoru, Oksford Universitetinin əməkdaşı Josephine Fawkes çıxış edərək, panel haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, beş il əvvəl Azərbaycanda peşə təhsili məktəblərinə 12 min nəfər qəbul olub. İndi bu say 24 min nəfərə qədər artıb. Həmçinin on il əvvəl ali təhsilə çıxış 32 faiz idisə, bu il bu rəqəm 60 faizə yaxındır. 2026-cı ilə qədər onu 75 faizə qədər artırmaq planı var.

### "Bacarıqların artırılması" mühüm müzakirə predmeti kimi...

COP29 çərçivəsində "PAŞA Holdinq"in təşkilatçılığı ilə "Bacarıqların artırılması" (Capacity building) mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edən Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru Fariz İsmayılov Azərbaycanın qeyri-neft sektorunu inkişaf etdirdiyini, neft hasilatının azaldığını, qaz hasilatının isə çox artmadığını bildirib. "Buna görə iqtisadiyyatın digər sahələrini, xüsusən də yüksək texnoloji iqtisadiyyatı inkişaf etdirməyi düşünməliyik. Bunun üçün yaxşı təhsilə, universitetlərə və araşdırmalara ehtiyacımız var", - deyə o qeyd edib.

Təmiz enerjinin texnologiyalardan, yeniliklərdən, startaplardan asılı olduğunu qeyd edən prorektor bütün bunların Azərbaycan üçün çox vacib olduğunu deyib: "Biz Lənkəranda fermerlərin, gənclərin imkanlarını genişləndirməyə, davamlı inkişafa xüsusi diqqət yetirməklə bir çox təlimlər keçirməyi planlaşdırırıq. Məhz buna görə də mən bütün şirkətləri, özəl sektoru bu təşəbbüsdə iştirak etməyə və Azərbaycanın gələcəyinə sərmayə qoymağa dəvət edirəm".

COP29 çərçivəsində həm də "Təhsilin yaşıllaşdırılması və iqlim dayanıqlılığı" mövzusunda yüksəksəviyyəli panel müzakirəsi keçirilib. Panel sessiyası iqlim çağırışlarına cavab olaraq təhsildə transformativ yanaşmaların müzakirəsinə həsr olunub. Müzakirələr zamanı Azərbaycanda STEAM təhsili təşəbbüsünün şagirdlərə yaşıl enerji və davamlılıq sahəsində real layihələr üzərində işləməyə imkan yaratdığı da qeyd edilib. Panel müzakirəsi zamanı iqlimə həssas təhsilin qlobal təşviqində tərəfdaşlığın öhdəliyi bir daha təsdiqlənib və gələcək fəaliyyətlərin əsasən potensialın artırılması, eləcə də biliklərin bölüşdürülməsi istiqamətində olacağı vurğulanıb.




### İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası

Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində iqlim və sağlamlıq mövzusunda yüksəksəviyyəli dəyirmi masa da keçirilib. Tədbir zamanı "İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası"nın yaradılması haqqında Niyyət Məktubu imzalanıb. Koalisiyanın tərkibinə Azərbaycan, Böyük Britaniya, Misir, Birləşmiş Ərəb Əmirlikləri və Braziliya daxil olub. Bildirilib ki, COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan iqlim və sağlamlıq arasında əlaqənin təşviqinə sadiqdir. Qeyd olunub ki, COP26-da İqlim və Sağlamlığın qorunması naminə Transformasiya Alyansının (ATACH) yaradılması, COP27-də İqlim Fəaliyyəti və Qidalanma Təşəbbüsü (I-CAN), eləcə də Sağlamlıq üçün İqlim və Sağlamlığın Maliyyələşdirilməsi üzrə COP28-in Rəhbər prinsipləri kimi əvvəlki təşəbbüslər mühüm və möhkəm təməl qoyub. Bununla belə, əldə edilən nailiyyətlərlə kifayətlənilməməlidir...

### Xəzərlə bağlı Bəyannamə...

Regionun ən mühüm problemlərindən sayılan Xəzər dənizinin ekoloji durumu ilə bağlı məsələ də COP29-un əsas müzakirə predmetlərindəndir. Noyabrın 18-də COP29 çərçivəsində Azərbaycan milli pavilyonunda "İqlim dəyişikliyi fonunda Xəzər dənizinin səviyyəsinin azalması" mövzusunda Xəzəryanı ölkələrin rəsmilərinin toplantısı keçirilib. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyası Katibliyinin birgə təşkilatçılığı ilə təşkil olunan toplantıda Xəzəryanı ölkələrin - Azərbaycanın, İranın, Qazaxıstanın, Rusiyanın və Türkmənistanın nümayəndələri, rəsmiləri, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Tədbirdə "Xəzəryanı dövlətlərin nazirlərinin və yüksəkvəzifəli şəxslərinin Xəzər dənizi səviyyəsinin azalması ilə bağlı əməkdaşlığın gücləndirilməsi haqqında Bəyannamə" qəbul edilib.

***S.İSMAYILZADƏ***

## COP29-da Paris Sazişinin 6.8-ci maddəsində istinad olunan qeyri-bazar yanaşmaları çərçivəsində iş proqramına dair qərar qəbul edilib

Noyabrın 18-də COP29 çərçivəsində Tərəflər Paris Sazişinin 6-cı maddəsinin 8-ci paraqrafında istinad olunan qeyri-bazar yanaşmaları çərçivəsində iş proqramına dair qərar qəbul ediblər.

AZƏRTAC xəbər verir ki, 6.8-ci maddə qeyd olunan yanaşmalar vasitəsilə Tərəflərə milli iqlim planlarını, o cümlədən mitiqasiya və adaptasiya üzrə planların həyata keçirilməsi və davamlı inkişafın təşviqi imkanı yaradır.

COP29 Sədrliyi Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə işlək vəziyyətə gətirilməsini əsas prioritetlərindən biri kimi müəyyən edib. Bu maddə ölkələrin iqlim hədəflərinə çatmaq üçün əməkdaşlıq zamanı etibarlı və şəffaf karbon bazarlarının təmin edilməsini nəzərdə tutur. Həmin maddəyə uyğun bazarlar inkişaf etməkdə olan ölkələrə daha çox investisiya yönəltmək üçün önəmli vasitədir. 6-cı maddənin tam şəkildə tətbiqi ölkələrin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin həyata keçirilməsi üçün sərf etdikləri vəsaiti ildə təxminən 250 milyard ABŞ dolları azalda bilər.

Xatırladaq ki, COP29-un ilk günündə - noyabrın 11-də Paris Sazişinin 6.4-cü maddəsinə uyğun olaraq, Tərəflər karbon kreditlərinin yaradılması üzrə standartlar barədə razılığa gəliblər. Bu, beynəlxalq karbon bazarının BMT-nin nəzarəti altında fəaliyyət göstərməsini təmin edəcək. Sözügedən standartlar beynəlxalq karbon bazarının yüksək etibarlılığına və emissiyaların azaldılmasına imkan verəcək.



# 3 qardaş ölkənin yeni enerji ittifaqı

## Azərbaycan, Qazaxıstan və Özbəkistanın imzaladığı saziş Şərq-Qərb "yaşıl enerji" dəhlizini formalaşdıracaq

Noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı iqtisadi sahədə əməkdaşlığın daha da artırılması, nəqliyyat-tranzit sahəsində yeni imkanlardan səmərəli istifadə edilməsi və bərpaolunan enerji üzrə birgə layihələrin həyata keçirilməsi və digər məsələlər müzakirə olunub. Sonra dövlət başçıları "Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzalayıblar.

Qeyd edək ki, mayın 1-də Azərbaycan, Özbəkistan və Qazaxıstanın iqtisadiyyat və energetika nazirləri Daşkənddə keçirilən görüşdə Mərkəzi Asiyanın Günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin körpü rolunu oynayacaq Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini müzakirə ediblər. Müzakirələrin yekununda "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin qarşılıqlı əlaqəsi üzrə Əməkdaşlıq Memorandumu"na imza atılıb. Memorandumun davamı kimi strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb ki, bu sənəd beynəlxalq əhəmiyyətli hüquqi istinad olmaqla, Mərkəzi Asiya-Azərbaycan-Avropa formatının təsis edilməsini təmin edəcək. Sənəd bərpaolunan enerji mənbələri, enerji səmərəliliyi, hidrogen, enerji infrastrukturu, həmçinin rəhbər komitə və işçi qrupunun yaradılması kimi məsələləri əhatə edir.

### Saziş 3 ölkənin iqtisadiyyatını Orta Dəhlizdə birləşdirməsinə töhfə verəcək

Sazişin əhəmiyyətini yüksək dəyərləndirən Prezident İlham Əliyev bildirib ki, bu, Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisədir. Üç qardaş ölkə öz əməkdaşlığını yeni səviyyəyə qaldırır və "yaşıl enerji" sahəsində fəal mərhələ başlayır. Saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır, inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı prosesləri daha da irəli aparmağa imkan verir.

"Yaşıl enerji" karbon neytrallığına doğru irəliləyən Qazaxıstan üçün prioritet istiqamətdir, qazax hökuməti qazıntı resurslarından asılılığı azaldan, texnoloji yenilikləri inkişaf etdirən və ekoloji davamlılığı dəstəkləyən infrastruktur yaratmaqdadır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin vurğuladığı kimi ölkənin ümumi gücü 43 giqavat olan "yaşıl layihələr"in həyata keçirilməsi istiqamətində bütün imkanlar səfərbər edilib və xarici şirkətlərlə razılaşmalar əldə olunub. Bu baxımdan Qazaxısatnın güclü bərpaolunan enerji potensialı "yaşıl kabel"in nəql gücünün də artmasına xüsusi töhfə verəcək, üçtərəfli əməkdaşlıq enerji sistemlərinin inteqrasiyası və ekoloji cəhətdən təmiz enerjinin Avropaya və digər bazarlara çatdırılması üzrə etibarlı körpü rolunu oynayacaq. Bu Sazişin praktiki nəticələri həm də 3 ölkənin iqtisadiyyatını Orta Dəhlizdə birləşdirməsinə və inkişafına töhfə verəcək.

Özbəkistanın da alternativ enerji resursları kifayət qədər güclüdür və Xarici investorlarla aparılan qiymətləndirmələr Günəş və külək stansiyalarının potensiallarının hədsiz ümidverici olmasından xəbər verir. Özbəkistan 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını 40 faizə çatdırmağı, həmçinin 4,2 giqavatlıq enerjisaxlama sistemləri yaratmağı planlaşdırır. Səudiyyə Ərəbistanın "ACWA Power" şirkəti neçə müddətdir ki, bu ehtiyatların istehsalı və emalı üçün böyük bir layihə icra edir. Nəticədə bu ölkənin enerji gücü Şərq-Qərb dəhlizinin rentabelliliyi və dayanıqlılığı üçün mühüm əhəmiyyət kəsb edəcək.




### Qarabağ Bəyannaməsinin bəndlərindən biri...

Üç qardaş ölkənin "yaşıl enerji" üzrə vahid siyasət təşəbbüsləri Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsinin əsas bəndlərindən birini təşkil edir, sazişdə əsas hədəflərdən biri kimi üzv ölkələr arasında bərpaolunan enerji sahəsində birgə əlaqələrin vahid iqtisadi blokda birləşdirilməsi öz əksini tapıb. Bəyannamənin 11-ci bəndində TDT ölkələri bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla enerji sahəsində strateji tərəfdaşlığın daha da artırılması və bu çərçivədə Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsinə ("yaşıl dəhliz") dəstəyini ifadə edib. Sənəddə, həmçinin türk dövlətləri tərəfindən bərpaolunan geniş enerji potensialının imkanları nəzərə alınaraq "yaşıl enerji"nin üzv dövlətlər və üçüncü ölkələr də daxil olmaqla ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişaf etdirilməsi bəyan olunub.

Qazaxıstanın Maksut Narikbayev Universitetinin "MIND" Tədqiqat və Analitika Mərkəzinin xarici siyasət və beynəlxalq tədqiqatlar proqramının rəhbəri Miras Jienbayevin qeyd etdiyi kimi Qazaxıstan, Azərbaycan və Özbəkistanın "yaşıl enerji" sahəsində birgə fəaliyyət üç ölkə liderlərinin tərəfdaşlıq istəyini və yüksək etimadı nümayiş etdirir. Eyni zamanda, Türk Dövlətləri Təşkilatı çərçivəsində müəyyən edilmiş hədəflərə, zirvə toplantıları və yüksək səviyyəli görüşlərdə razılaşdırılmış qərarların icrasına çatmağa imkan verir. Bu əməkdaşlıq qardaş türk dövlətlər ilə müttəfiqliyin müsbət gələcəyini formalaşdıracaq.

### Səudiyyə Ərəbistanı da Türk "yaşıl enerji ittifaqı"na qoşulur

Sazişin digər mühüm məqamı ondan ibarətdir ki, neft və qaz tədarükçüsü olan ölkələr tədricən ənənəvi yanacaqdan imtina etməyə və karbon emissiyası olmayan enerji istehsalı və nəqlinə keçməyə fokuslanıb ki, prosesə dünyanın ən nəhəng neft tədarükçüsü olan körfəz ölkələrinin, xüsusilə də Səudiyyə Ərəbistanın qoşulması da bunu təsdiqləyir. Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri artıq xeyli müddətdir ki, Mərkəzi Asiya və Azərbaycanda "yaşıl layihələr"də təmsil olunur. Bu baxımdan Qara dəniz kabeli layihəsinin gələcəkdə Yaxın Şərq regionunu da əhatə edəcəyini və Şərq-Qərb enerji dəhlizinin formalaşacağını söyləmək mümkündür. "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan, Qazaxıstan, Özbəkistan və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması da bunu deməyə əsas verir.

Beləliklə, böyük karbohidrogen tədarükçüləri olan 3 türk dövləti və onların müttəfiqinə çevrilmiş Səudiyyə Ərəbistanı növbəti onilliklər ərzində qlobal neft istehlakının azalması fonunda ənənəvi enerjini kompensasiya edə biləcək "yaşıl enerji" potensialını qlobal bazarlara çıxaracaq. Bununla da, neft-qaz ölkələri kimi tanınmış bu dövlətlərin növbəti mərhələdə əsas vizyonu "yaşıl enerji"nin ixracatçıları kimi formalaşacaq.

***ELBRUS CƏFƏRLİ***

# COP29 dünya mediasının gündəmindədir

Bakıda keçirilən COP29 dünya mediasının gündəmində əsas müzakirə mövzularından biri kimi qalmaqda davam edir.

Moldovanın "Noi.md" xəbər portalında rus və rumın dillərində nəşr edilən "Moldova Prezidenti və Bakıda keçirilən COP29-un digər iştirakçıları Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə ideyalarını dəstəkləyirlər" sərlövhəli məqalədə nüfuzlu beynəlxalq konfransın təşkili, müzakirə olunan strateji mövzular barədə məlumat verilib. Məqalədə bildirilir ki, Bakıda COP29-un iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının sammiti baş tutub və burada Moldova Prezidenti Maya Sandu da çıxış edib. Sandu qlobal ekoloji problemlərin həllində inkişaf etməkdə olan ölkələrə dəstək verilməsinin zəruriliyi ilə bağlı sessiyanın əsas doktrinasını alqışlayıb.

"Yaşıl Zona" ərazisində bütün maraqlı tərəflərin - fəallardan və özəl təşəbbüslərin tərəfdarlarından tutmuş iri biznes və dövlət qurumlarının nümayəndələrinə qədər çoxşaxəli ünsiyyət təşkil olunur. "Mavi Zona"da sessiyalar, görüşlər və sammitlər keçirilir. Yazıda daha sonra qeyd olunur ki, müxtəlif ölkələrin onlarla prezident və digər yüksək vəzifəli şəxslərinin iştirak etdiyi tədbirdə Afrika, Latın Amerikası və xüsusilə kiçik ada dövlətlərindən olan ölkələr geniş nümayəndə ilə təmsil olunub.

COP29-a ev sahibliyi edən tərəfin əsasi diqqəti ekoloji bərabərlik məsələsinə yönəlib. Forumun əsas məqsədinə görə, həm karbohidrogenlərin istehlakında, həm də zərərli emissiyaların istehsalında lider olan inkişaf etmiş ölkələr iqlimə təzyiqə görə məsuliyyəti öz üzərinə götürməli və təbiətə dəyən zərərin ödənilməsində daha zəif ölkələrə kömək etməlidir.

Sonda vurğulanır ki, Bakıda keçirilən COP-29-da qlobal temperaturun artmasının qarşısını almaq üçün Parisdə iqlim sazişinin imzalanmasından 9 il sonra karbon bazarları üzrə mühüm razılaşma artıq əldə olunub. Tədbir zamanı BMT-nin Baş katibi Antonio Quterreş iqlim dəyişikliyinin qarşısının alınması üçün vaxtın daraldığını bildirib və bu məqsədlə ayrılan vəsaitin artırılmasına çağırıb.

Səudiyyə Ərəbistanı Krallığının nüfuzlu "əş-Şarq əl-Avsat" qəzeti isə Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 12-də Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində çıxışından yazıb. Qəzet Azərbaycan Prezidentinin ölkələrin təbii sərvətlərə malik olduğuna və tələbatı ödəmək üçün onları bazarlara çıxarmasına görə suçlanmasının yolverilməzliyi barədə dediklərini oxucularının diqqətinə çatdırıb. Sitatda dünya ictimaiyyətini bu məsələlərdə realist olmağa çağıran Prezident İlham Əliyevin Azərbaycanın COP29-un sədri kimi yaşıl keçidin güclü carçısı olduğunu və bunu davam etdirdiyini bildirdiyi də diqqətə çatdırılır.







Səudiyyə nəşri Azərbaycan liderinin çıxışında planetin qlobal istiləşməsindən mühazirə deməyə çalışan, amma əslində Azərbaycan qazının tədarükünü daha da artırmağa can atan bir sıra qərb ölkələrinin ikiüzlülüyü ilə bağlı fikirlərindən sitat gətirərək yazır: "Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib".

İordaniyanın aparıcı media qurumları da Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) aid çoxlu sayda xəbərlər və videomateriallar yayımlayıb. Bu ölkənin "Petra" Dövlət İnformasiya Agentliyi, "The Jordan Times", "Al-Rai", "Əd-Dustur", "Ammon News", "Jordan News", "Roya News", "Al-Mamlaka" qəzet və saytlarında, eləcə də "Jordan Tv", "Roya Tv" və "Mamlaka Tv" televiziya kanallarında COP29 ilə bağlı silsilə məqalə və videomateriallar dərc edilib.

Xəbərlərdə COP29 çərçivəsində keçirilən Liderlər Sammitində İordaniya Kralı II Abdullahı təmsil edən Vəliəhd Şahzadə II Əl-Hüseyn bin Abdullahın tədbirdəki çıxışı, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü barədə ətraflı məlumat verilib. Bundan əlavə, COP29-un Bakıda yüksək səviyyədə təşkil edilməsi, iqlim dəyişmələrinə dair danışıqların uğurla nəticələnməsi və COP29-la bağlı təşəbbüslərin dəstəklənməsi ilə bağlı müsbət rəylər oxuculara təqdim olunub. Azərbaycanın dünyanın prioritet qəbul etdiyi yaşıl enerji layihələri ilə bağlı məlumat verilib, ölkəmizin bu sahədə təcrübəsinin dünyaya çatdırılması məsələləri geniş işıqlandırılıb.




Yerli mediada Vəliəhd Şahzadə II Əl-Hüseyn bin Abdullahın COP29-da iştirakı, Azərbaycanın tarixi və turizm imkanları ilə bağlı faktların yer aldığı videoçarxlar da bu ölkə mətbuatında geniş yayılıb.

Çinin ingilisdilli "China Daily" qəzeti isə Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşrinin təqdimatı barədə məqalə dərc edib. Çinin nüfuzlu nəşri AZƏRTAC-ın təqdim etdiyi materiala istinad edərək, ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, layihə rəhbəri Prezidentin köməkçisi Anar Ələkbərov olan nəşrdə Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillərin, müvafiq məlumatların yer aldığını yazıb.

Qeyd olunub ki, Azərbaycan təbiətinin müxtəlifliyini təsvir edərək ölkənin bütün regionlarını, milli parklar və qoruqlarını əhatə edən layihə üzrə videoçəkilişlər aparılıb, videoçarxlar və sənədli film hazırlanıb. Nəşr yazır ki, kitabda toplanmış şəkillər Azərbaycanın gözəlliklərini təqdim edəcək, insanlara təbiəti sevməyi və qorumağı bir daha xatırladacaq. Layihə zamanı işğaldan azad olunmuş ərazilərdə - Qarabağda və Şərqi Zəngəzurda da çəkilişlər aparılıb.

Qeyd edək ki, çap versiyası və rəqəmsal platformalar üzrə yüz milyonlarla oxucusu olan nüfuzlu "China Daily" qəzeti təkcə Çində deyil, eləcə də dünyada ingilis dilində nəşr edilən ən populyar qəzetlərdən biridir. Onun xarici ölkələrdəki oxucularının sayı Çindəki oxucularından çoxdur.

***Nardar BAYRAMLI***

# Dünya parlamentləri iqlim dəyişikliyi ilə mübarizədə fəal olmalıdır

## COP29 çərçivəsində keçirilən Parlament Görüşündə vacib müzakirələr aparılıb

Bakı şəhərində BMT-nin ən böyük iqlim tədbiri olan COP29 uğurla davam edir. COP29 çərçivəsində dünya ölkələrinin parlamentlərinin nümayəndələri də iştirak ediblər. Bu da təsadüfi deyil. Çünki qlobal iqlim dəyişiklikləri ilə əlaqədar dünya ölkələrinin parlamentləri fəal əməkdaşlıq etməli, qanunvericilik səviyyəsində təcrübə mübadilələri aparmalıdır. Azərbaycanın Milli Məclisi belə bir əməkdaşlığa böyük önəm verir. Ölkəmizdə keçirilən COP29 çərçivəsində isə bu məsələ xüsusilə aktualdır. Azərbaycan parlamenti bu mötəbər tədbirin keçirilməsi işində üzərinə düşən vəzifələri lazımi səviyyədə yerinə yetirməyə çalışıb.

Məlumdur ki, Azərbaycan Milli Məclisinin fəal əməkdaşlıq etdiyi beynəlxalq qurumlardan biri də Parlamentlərarası İttifaqdır. Parlamentlərarası İttifaq ilə Azərbaycanın Milli Məclisi arasında aparılmış danışıqlar və razılaşmaya əsasən bu mötəbər təşkilat Bakıda keçirilən COP29 konfransında parlamentlərin iqlim dəyişikliyi ilə mübarizədə rolunun gücləndirilməsi istqamətində iştirakını dəstəkləyir. Parlamentlərarası İttifaqın bir neçə ay əvvəl keçirilmiş Azərbaycan Milli Məclisi ilə təşkilat arasında COP29 çərçivəsində Anlaşma Memorandumu da imzalanıb.

Qarşılıqlı əməkdaşlıq çərçivəsində COP29 günlərində Milli Məclisin və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə Parlament Görüşü keçirilib. 16-17 noyabr tarixlərində keçirilən tədbirdə 66 ölkədən və beynəlxalq təşkilatlardan 330-dək iştirakçının qatılıb. Tədbirdə 12 spiker və vitse-spiker olmaqla, 160-dan çox parlament üzvü iştirak edib.

Parlament Görüşünün ikinci günündə də sessiyalarda vacib müzakirələr aparılıb. Belə ki, Şərqi Afrika Qanunvericilik Məclisinin Parlament üzvü Jaklin Amonginin moderatorluğu ilə keçirilən "İqlim həssaslığının həll edilməsi: iqlim fəaliyyətinə hərtərəfli və ədalətli yanaşmanın təşviqi" adlı sessiya parlamentarilərə kiçik ada dövlətləri, dağlıq və dənizə çıxışı olmayan ölkələr kimi müxtəlif dövlətlərin özünəməxsus həssaslıqlarının necə həll edilməsi barədə daha dərindən araşdırma aparmaq imkanı yaradıb.



Tədbirdə çıxış edən Beynəlxalq İnkişaf Hüquq Təşkilatının (IDLO) Baş direktoru xanım Jan Beagle, İnteqrasiya edilmiş Dağların İnkişafı üzrə Beynəlxalq Mərkəzin (ICIMOD) Regional Fəaliyyət və Qlobal Təbliğat üzrə Strateji Qrupun rəhbəri David Potter, Benin Milli Assambleyasının üzvü Jeremi Adomahu və BMT-nin iqlim dəyişmələri üzrə eksperti Katerine Vonq iqlim dəyişikliyindən təsirlənən həssas qrupların müdafiəsini təmin etməyin, ədalətli və hərtərəfli iqlim siyasətinin təşviqinə dəstək olmağın vacibliyindən danışıblar. Bildirilib ki, iqlim dəyişmələri ilə mübarizədə yerli qanunlar və beynəlxalq öhdəliklər mütləq nəzərə alınmalıdır.

Sonra "İqlim dəyişikliyi ilə mübarizədə texnologiyadan istifadə və ədalətli girişin təmin edilməsi" adlı sessiya təşkil olunub. Milli Məclisin deputatı Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən sessiyada texnologiyanın, o cümlədən süni intellektin iqlim dəyişikliyi ilə mübarizədəki rolunun araşdırılması və iqlim fəaliyyətinin irəlilədilməsində alət ola biləcək yeni texnologiyalar barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, parlamentlərin texnologiyalardan təhlükəsiz, məsuliyyətli və inklüziv şəkildə istifadəni təmin etməsi yolları müzakirə edilib. Tədbirdə parlamentlərin xüsusilə inkişaf etməkdə olan ölkələrdə belə texnologiyalara ədalətli və bərabər çıxışı təşviq etmək imkanları barədə də danışılıb.

Böyük Britaniya parlamentinin üzvü Kris Lounun moderatorluğu ilə keçirilən "İqlim dəyişikliyi qarşısında sağlamlıq və ərzaq təhlükəsizliyinin qorunması üçün səylər" mövzusunda sessiyada iqlim dəyişikliyinin insanların sağlamlığına təsiri, xüsusilə iqlim dəyişikliyi nəticəsində yaranan sağlamlıq problemləri müzakirə olunub. Həmçinin parlamentlərin sağlamlığın qorunmasına və iqlim problemlərinin həllinə hərtərəfli, tamamlayıcı yanaşma tətbiq edə bilməsi yolları barədə fikir mübadiləsi aparılıb.

Daha sonra "İnsan mobilliyinə və iqlim dəyişikliyinə gedən yol: iqlim səbəbli miqrasiya və məcburi köçkünlüyün həlli" adlı sonuncu sessiya təşkil edilib. Milli Məclisin deputatı Qaya Məmmədovun moderatorluğu ilə keçirilən sessiyada iqlim dəyişikliyi təsirlərindən yaranan miqrasiya və məcburi köçkünlük tendensiyasına diqqət çəkilib. Parlamentlərin miqrasiya və məcburi köçkünlüyün əsas səbəblərini həll etmək və məcburi köçkünlərin və miqrantların müdafiəsini təmin etmək üçün strategiyaları təşviq etmək imkanları müzakirə olunub. Sessiyada çıxış edənlər - BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) Xüsusi Məsləhətçisi Ofisinin Baş siyasət məmuru xanım Mişel Yonetani, "Refugees International" təşkilatının qaçqın təqaüdçüsü xanım Ayoo Hellen, Tailand Nümayəndələr Palatasının üzvü xanım Sanivan Buaban iqlim dəyişikliyinin təsirindən yaranan miqrasiya və məcburi köçkünlük problemlərini müzakirə edərək müxtəlif aspektlərə toxunublar. Onlar xüsusilə məcburi köçkünlərin hüquqlarını qorumaq və təhlükəsizliyini təmin etmək üçün beynəlxalq əməkdaşlığın vacibliyini qeyd ediblər. İqlimin səbəb olduğu miqrasiya zamanı ən çox təsirlənən qadın və uşaqların vəziyyətinə diqqət çəkilib.




Çıxışlardan sonra sessiya interaktiv müzakirələrlə davam edib. Müzakirələrdə parlamentlərin iqlim dəyişikliyinin sosial təsirlərinə qarşı strategiyaları necə inkişaf etdirə biləcəyi barədə fikirlər səsləndirilib.

Sonda Parlament Görüşünün yekun sənədi qəbul olunub.

Milli Məclisin deputatı Soltan Məmmədov sənəd barədə məlumat verib. S.Məmmədov qeyd edib ki, COP29 parlament sessiyası üçün layihə sənədi COP27 və COP28 çərçivəsində keçirilmiş parlament sessiyalarının yekun sənədləri, həmçinin Parlamentlərarası İttifaqın 148-ci assambleyasında qəbul edilmiş qətnamə layihəsi üzrə müzakirələr, son illərdə keçirilmiş COP sessiyalarının gündəliyi əsasında hazırlanıb. Deputat bildirib ki, sənəd hazırlanarkən bütün ideyalar, şərhlər və rəylərin mümkün qədər nəzərə alınması üçün işlər görülüb. Sənəddə əks olunan müddəalar yalnız parlamentarilərin fikirlərini əks etdirən tövsiyələrdir.

Yekun nitqi ilə çıxış edən Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq bildirib ki, Bakıda COP29 çərçivəsində təşkil olunmuş Parlament Görüşü yaddaqalandır: "İlk dəfədir ki, Parlament Görüşünü iki gün ərzində keçirdik. Çünki müzakirə etdiyimiz məsələlərin önəmi baxımından daha çox vaxt ayırmaq istədik. Bu, təşkil etdiyimiz ən geniş auditoriyaya malik görüş olacaq".

"Parlament Görüşünün yekun sənədində parlamentlərin iqlim böhranı ilə mübarizədə rolu yer alır. Bu, geniş konsultativ məşvərət prosesinin yekunudur. Biz geniş parlament üzvlərinin fikirlərini almağa çalışdıq. Bu, parlamentlər üçün yol xəritəsini və öhdəliklərini göstərir. Eyni zamanda, birliyin, bərabərliyin önəmini vurğulayır. Biz bilirik ki, iqlim dəyişikliyi məsələsində təcili və qətiyyətli tədbirlər görməliyik. Biz istərdik ki, parlamentlər iş birliklərini davam etdirsinlər, ümumi kampaniyalara qoşulsunlar. Hamımız qətiyyətli tədbirlərə keçməliyik", - deyə Martin Çunqonq diqqətə çatdırıb.

***N.BAYRAMLI***

# COP29 həm də şəffaflıq platformasıdır

## Qlobal İqlim Şəffaflığı üzrə Bakı Bəyannaməsinin qəbul olunması Azərbaycanın əzmini göstərir

Bakıda keçirilən COP 29 yeni təşəbbüslər və ideyaların gerçəkləşməsi ilə yadda qalmaqdadır. COP29 tədbirinin ilk günlərindən iqlim maliyyəsi və hesabatlılıq məsələsi əsas mövzu kimi diqqətdə saxlanılıb. COP29-un ilk günündə Paris sazişinin 6.4 maddəsi (karbon bazarları) üzrə razılaşma əldə olunub. Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən bu saziş dayanıqlı maliyyələşmə üçün mühüm sütunlardan biridir. Eləcə də Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) üzrə əhəmiyyətli irəliləyiş əldə olunub. Maliyyə, investisiya və ticarət məsələlərinin müzakirəsinə həsr olunmuş bu tematik gündə özəl sektor nümayəndələri, çoxtərəfli inkişaf bankları (ÇİB) və xeyriyyə təşkilatları, eləcə də iqlim fondları, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətinin nümayəndələri iqlim fəaliyyətini maliyyələşdirmək üçün kollektiv səylər çərçivəsində bir araya gəliblər.

### Azərbaycan Şəffaflıq Hesabatı təqdim edən ilk ölkələr sırasındadır

Şəffaflıq COP hərəkatında ən mühüm amildir və bütün iqlim ailəsi üçün inam və etibar yaradır, tərəfləri məsuliyyətə dəvət edir, iqlim fəaliyyətinə dair ambisiyaları artırır. Həmçinin ölkələrə iqlimlə bağlı fəaliyyət potensiallarını daha yaxşı anlamağa və ehtiyaclarını müəyyən etməyə kömək edir. Maliyyələşmə və şəffaflıq məsələsinin əsas təşəbbüskarı kimi Azərbaycan sammit ərəfəsində ilk arxitekturanı formalaşdırıb, iqlim maliyyələşməsinin əsas təməllərindən “İqlim Dəyişmələri üzrə İtki və Zərər Fondu”nun yaradılması gerçəkləşib.

Noyabrın 18-də COP tarixində yeni mühüm hadisə - Qlobal İqlim Şəffaflığı üzrə Bakı Bəyannaməsi qəbul olunub ki, bu sənəd Azərbaycanın iradəsi və səyi sayəsində şəffaflığı və beynəlxalq əməkdaşlığı qurmaqda əzmini göstərir. Sənədə imza atan ölkələr Paris İqlim Razılaşmasının tərəflərini İqlim şəffaflığı üzrə hesabatlarını 31 dekabr 2024-cü ilədək müvafiq qaydada təqdim etməyə razılıqlarını ifadə edib.

Qlobal İqlim Şəffaflığı üzrə Bakı Bəyannaməsi milli hesabatlarını hazırlayan ölkələrlə digər ölkələrin arasında əməkdaşlığın qurulması, bu sahədə resursların səfərbər edilməsi, əməkdaşlığa təkan verən fəaliyyətin həyata keçirilməsi və təcrübə mübadiləsi yolu ilə şəffaflığın təminatında platforma rolunu oynayacaq.

İqlim Şəffaflığı Bəyannaməsi Bakı Şəffaflıq Platforması ilə paralel şəkildə həyata keçiriləcək ki, bu da iqlim maliyyə ilə bağlı hədəflərin vahid bir siyasət çərçivəsində tənzimlənməsi deməkdir. COP29-un Prezidenti Muxtar Babayev Yaponiya, Cənubi Afrika Respublikası, Amerika Birləşmiş Ştatları, İtaliya Respublikası, Qazaxıstanın nazirlərinin iştirakı ilə keçirilən “Qlobal iqlim şəffaflığı üzrə nazirlərin dəyirmi masası”nda bildirib ki, tərəfdaş ölkələr həm də ikiillik şəffaflıq hesabatlarını təqdim etmək niyyətlərini ortaya qoymaqla maliyyə hesabatlılığı məslələsində öz dəstəkləyici mövqeyini nümayiş etdirir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibinin müavini Nura Hamlaji bildirib ki, bir çox ölkə hesabatları təqdim edib ki, onların sırasında Türkiyə və Qazaxıstan kimi türk dövlətləri var. Azərbaycan da İkiillik Şəffaflıq Hesabatı (BTR) üzrə işləri yekunlaşdırıb bu həftə ərzində təqdim edilcək. Nəticədə onluq ölkələri sırasına daxil olacaq respublikamız şəffaflıq alyansında da nümunəvi mövqeyini möhkəmləndirəcək.



### Bakıda təməli qoyulan 10 trilyon dollarlıq iqlim investisiyası

Maliyyələşmə siyasətinin davamı kimi beynəlxalq maliyyə korporasiyaları və bank strukturları iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə məqsədilə öz maliyyə töhfələrini artıracağına dair nikbin bəyanatlar səsləndirib. Əsas donorlardan biri olan Dünya Bankı maliyyə töhfəsini 170 milyarda çatdıracaq. COP29 çərçivəsində keçirilən İqlim məsələləri üzrə biznes, investisiya və xeyriyyəçilik platformasında (BIPCP) da dayanıqlı maliyyə infrastrukturlarının qurulması yönündə müsbət siqnallar verildi, biznes, maliyyə və xeyriyyə cəmiyyətlərinin liderləri, o cümlədən ümumi aktivləri 10 trilyon dollar olan investorlar özəl kapitalın iqlim bazarlarına yönləndirilməsi üçün ilk dəfə bir araya gələcəklərini bəyan ediblər. Məsələn, təkcə Asiya İnkişaf Bankı (AİB) buzlaqların əriməsi nəticəsində yaranan təsirlərlə mübarizə aparmaq üçün nəzərdə tutulmuş yeni proqrama 3,5 milyard dollar ayıracaq. Yaxın günlərdə icra ediləcək maliyyə transları Azərbaycanı da əhatə edir. Belə ki, Yaşıl İqlim Fondunun dəstəyi ilə AİB Azərbaycan, Qırğızıstan, Tacikistan və Özbəkistanda buzlaq riskinin qiymətləndirilməsini də həyata keçirəcək. Bu layihənin icrası su ehtiyatlarına və kənd təsərrüfatına investisiya yatırmaqla yanaşı, buzlaqların əriməsi nəticəsində təhlükə altında olan həssas icmalara, xüsusən də zəif inkişaf etmiş dağlıq bölgələrə fayda verəcək.

İsveç hökuməti BMT-nin Yaşıl İqlim Fonduna 730 milyon dollar məbləğində ianə ayrılmasını rəsmiləşdirib. Həmçinin Tədbirin digər tərəfdaşları arasında Asiya Filantropiya Müəssisəsi Şəbəkəsi Bil və Melinda Qeyts Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Qlobal İqlim Fəaliyyəti üzrə Mərakeş Tərəfdaşlığı, Dayanıqlı Bazarlar Təşəbbüsü, Dayanıqlı İnkişaf üzrə Dünya Biznes Şurası, Dünya İqtisadi Forumu və “XPRIZE” fondu da maliyyə donorluğunu üzərinə götürüb.

Yeri gəlmişkən, Azərbaycanın bank sektoru da bu proseslərə qoşularaq 2030-cu ilə qədər “yaşıl” layihələrə 1,2 milyard ABŞ dolları məbləğində vəsait ayırmağı öhdəsinə götürüb və bu prioritetlər ötən həftə təsdiq edilmiş Yaşıl Taksonomiya sənədində də əksini tapıb. Həmin vəsaitlər Azərbaycanın aşağı karbonlu iqtisadiyyata keçidinə töhfə verən layihələrin dəstəklənməsinə yönəldiləcək.

Yeni təsis edilmiş “Bakı Qlobal İqlim Şəffaflığı Platforması” isə Paris Sazişi və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG) üzrə sazişlərdən irəli gələn maliyyə institutlaşması istiqamətində bir sıra tədbirləri icra etməyi planlaşdırır ki, bu da əhatəli və çoxşaxəli maliyyə instutlaşmasını təşviq edəcək.

### İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək

Bakıda əsası qoyulan maliyyə və şəffaflıq arxitekturası ilk növbədə, inkişaf etməkdə olan kiçik ada dövlətlərinə (SİDS) dəstəyi nəzərdə tutur. Qeyd edək ki, ada dövlətlərinə yardım çağırışı Prezident İlham Əliyevin sammitdə dünya liderlərinə müraciətində də əsas yer tutub və “kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir” çağırışının dəstəklənməsi sayəsində qeyd etdiyimiz fondlar yaradılıb.

Göründüyü kimi Azərbaycan COP29 Sədrliyi dövründə prioritet məsələ olan SIDS-in iqlim maliyyəsinə çıxışını yaxşılaşdırmaq üçün müvafiq strategiyaları da gerçəkləşdirir və qlobal maliyyə platforması yaradır.

Beləliklə, COP29-dan əsas gözlənti olan yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmaların əldə olunması qlobal miqyasda dekarbonizasiya üçün fasiləsiz maliyyə mənbələrinin hərəkətə gətirilməsi üçün münbit mühit yaradır.

*E.CƏFƏRLİ*

# Süni zəka “yaşıl hədəflər”in sütununa çevrilir

COP29 çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin təşkilatçılığı ilə “Süni İntellektin təsiri: Texnoloji proqnozlaşdırma ilə rəqəmsal iqtisadiyyatda idarəetmənin yeni dövrü” mövzusunda keçirilən panel müzakirələrdə süni intellektin rəqəmsal iqtisadiyyatın inkişafında oynadığı rol və texnoloji proqnozlaşdırmanın iqtisadiyyatların dayanıqlılığına təsiri müzakirə olunub.

Qeyd edək ki, COP29 çərçivəsində “Azərkosmos”un təşkilatçılığı ilə “Kosmosdan Yerə qədər: Dəyişən iqlim şəraitində Data əsasında qərarların qəbul edilməsi” mövzusunda keçirilən sessiyada da dayanıqlı inkişafa və iqlim xidmətlərinə əlçatanlığın təmin olunmasında süni zəkanının əhəmiyyətinə toxunulub. Süni texnologiyalar vasitəsilə aparılan meteoroloji missiyalar atmosferdəki istixana qazlarının səviyyəsinin daim izləməyə və iqlim dəyişikliyi ilə bağlı strategiyaların hazırlanmasına kömək edir ki, qlobal alyans bu innovativ informasiya metodlarından daha çox istifadə etməyi düşünür. Azərbaycan hökuməti də bu çağırışlara qoşularaq “Big Data”, “Data Analytics”, “Machine Learning”, “Deep Learning” və süni intellekt texnologiyalarına əsaslanan intellektual sistemlərin gücləndirilməsində fəal yer almaq niyyətindədir.

### SOCAR-ın “Xalis sıfır” emissiyası süni zəkaya əsaslanır

Süni intellekt təmiz enerjiyə keçiddə də mühüm yer tutur. Bu innovasiya və texnologiyaların köməyilə karbohidrogenlərin istehsalı və emalında ən yaxşı nəticəyə nail olmaq mümkündür. Ölkəmizin milli neft təchizatçısı - SOCAR-ın 2050-ci il üçün “Xalis sıfır” hədəfləri də süni zəka infrastrukturuna fokuslanıb.

Hazırda karbon emissiyaları sahələrinin dəqiq aşkarlanması və idarə olunmasında peyklər və dronlar da daxil olmaqla digər süni texnologiyalara geniş yer verilməkdədir. Həmçinin bu texnologiyalardan istifadə yolu ilə metan emissiyalarının izlənməsi və azaldılması nəzərdə tutulur. Yeri gəlmişkən, COP29 çərçivəsində SOCAR ilə “Esyasoft” Holdinq və “Presight” şirkətinin birgə müəssisəsi olan “IntelliGrid” arasında Ağıllı Qaz Şəbəkəsinin İdarəetmə Sisteminin tətbiqinə dair Saziş imzalanıb ki, sənəd süni intellekt imkanlarından istifadə ilə optimallaşdırmanı nəzərdə tutur.

Bu tipli layihələrin digər enerji bölmələrində də tətbiqi planlaşdırılır, xüsusilə də “yaşıl enerji” strategiyasının əsas texnoloji sütunları birbaşa süni zəkaya əsaslanır. Hazırda bərpaolunan enerji sektorunda geniş tətbiq edilən “ağıllı texnologiyalar” da məhz süni zəka məhsullarıdır Ölkəmiz “yaşıl enerji” quruculuğunda qabaqcıl dünya şirkətləri ilə bu istiqamətdə yeni layihələrin icrası ilə bağlı sazişlər də imzalayıb ki, bu, təmiz enerji sahəsində qısa müddətdə böyük nəticələr əldə etməyə imkan verəcək.



### Yeni Nəsil İqtisadiyyat Strategiyası və süni zəka

Rəqəmsal iqtisadiyyata keçidin sürətləndirilməsi ölkəmizdə prioritet məsələlərdən biri kimi müəyyən edilib və iqtisadi artımı dəstəkləmək, sektorların rəqabət qabiliyyətini artırmaq, vətəndaşların xidmətlərə çıxışını asanlaşdırmaq və dövlət xidmətlərinin fəaliyyətini təkmilləşdirmək məqsədilə rəqəmsal texnologiyalardan istifadəyə geniş yer verilməkdədir. “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda yeni nəsil iqtisadiyyat qurucluğunun əsas atributlarından biri də süni intellektin inkişafıdır. Bu məqsədlərə çatmaq üçün ölkəmizin Yeni Nəsil İqtisadiyyat Strategiyasının hazırlanması işləri aparılmaqdadır.

Ancaq bütün bunlar paralel şəkildə insanların məşğulluğu ilə bağlı problemləri də həll etməyi aktuallaşdırır. Süni intellektə keçid sosial və məşğulluq orqanları qarşısında mühüm vəzifə və öhdəliklər qoyur. Dünya Bankının (DB) hesabatına əsasən, süni intellekt qarşıdakı beş il ərzində dünyada iş yerlərinin təxminən 25 faizini dəyişdirəcək, əmək bazarında pozulmalara səbəb olacaq. Xüsusilə də gələcəkdə vakansiyaları yenilənməsinə “rəqəmləşdirmə, təmiz enerjiyə keçid və təchizat zəncirlərinin yenidən bölüşdürülməsi” təsir edəcək. Tikinti, əkinçilik, balıqçılıq və meşəçilik kimi aşağı və orta ixtisaslı işləri əsas risk sahələri ola bilər. Ancaq bu rəqəmsal imkanlar “yaşıl və rəqəmsal iqtisadiyyat” quruculuğuna uyğun yeni çoxsaylı kadr ordusuna da ehtiyacı artıracaq. Belə ki, süni intellektin tətbiqinin genişlənməsi informasiya texnologiyaları, rəqəmsal mühəndsilik, kibertəhlükəsizlik, taksonomiya, yaşıl bankçılıq, alternativ enerji və digər sektorlarda minlərlə iş yerləri üçün qapı açacaq, davamlı idarəetmə texnologiyaları sahəsində mütəxəssislərə tələbat artacaq. DB-nin proqnozlarına görə, yeni iş yerləri ekoloji cəhətdən təmiz texnologiyalara keçidə investisiyalar, eləcə də qlobal təchizat zəncirlərinin yeni transformasiya hesabına dayanıqlı və yüksək gəlirli məşğulluq sahələri yaradacaq.

### Məşğulluğu qorumaq naminə

Qeyd edilən çağırışları nəzərə alaraq Azərbaycanda həm əməktutumlu sahələrin rəqəmsallaşdırılmasına uyğun yeni kadr institutlaşması, həm də İT sahəsi üzrə peşə hazırlığının artırılması istiqamətində davamlı layihələrin icrasına başlanılıb. Bir neçə nazirlik və elmi-tədqiqat institutları əmək bazarında gözlənilən əsaslı dəyişikliklərə uyğun peşəyönümlü xidmətlər infrastrukturu qurmaqdadır. Perspektivli peşələr və əmək bazarında tələb olunan bacarıqlar üzrə yeni imkanlar qiymətləndirilir, təhsil və tədris resursları süni intellekt əsasında işləyən platformalara əsaslandırılır. Həmçinin data analitik və data elmi mütəxəssisləri, blokçeyn proqramçıları və robototexnika mühəndisləri üzrə elmi-tədris-təlim imkanlarına dövlət daha çox sərmayə qoymaqdadır. Eləcə də Dövlət Məşğulluq Agentliyi “Peşə öyrən, işsiz qalma!” devizi altında həyata keçirdiyi “Peşəkar” layihəsi çərçivəsində informasiya kommunikasiya texnologiyaları (İKT) sahəsi üzrə peşə hazırlığı kurslarının sayını genişləndirib.

*ELBRUS*

# İqtisadi inkişaf sürətlənir

## Qeyri-neft resurslarının yüksək artımları sayəsində ÜDM 5 faiz böyüyüb

2024-cü ilin yanvar-oktyabr aylarında ölkəmizdə 103,5  milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz çox ümumi daxili məhsul istehsal olunub. Əlavə dəyərin böyük bir hissəsi qeyri-neft yığım mənbələrindən formalaşıb. Belə ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz, qeyri neft-qaz sektorunda isə 6,8 faiz artıb. Eləcə də sənayedə, ələlxüsus da qeyri-neft sənayesində artım meyilləri yüksəlib. Ötən 10 ay ərzində 53,3 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çox sənaye məhsulu istehsal edilib ki, istehsalın əsas mənbəyini 8,7 faiz artımla qeyri neft-qaz sektoru təşkil edir.

ÜDM-də sənayenin payının artmasında fərdi sahibkarlar tərəfindən məhsul istehsalının dinamikası xüsusi əhəmiyyət kəsb etməkdədir.

Beləliklə, ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır və hökumətin neft ÜDM-dən qeyri-neft ÜDM-ə keçid strategiyası özünü doğrultmaqdadır.Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz  sektorunun tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq və 2024-cü ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72 faizə çatacağı proqnozlaşdırılır. Eyni zamanda, qeyri-neft resurslarının yüksək artımları müqabilində ilin sonunda ümumi daxili məhsulun 5-6 faiz təşkil edəcəyi fərz olunur.

### Bütün yığımlarda artım meyilləri qeydə alınıb

2024-cü ilin 10 ayı ərzində biznesin aktivliyinin yüksəlməsi fiskal yığımların həcmini də artırıb, vergi orqanlarının xəttilə dövlət büdcəsinə 14 milyard 148,4 milyon manatdan çox vergi daxil olub, proqnoza 4,4 faiz artıq əməl edilib. Qeyri-neft-qaz sektorunda daxilolmalar 9 milyard 551,4 milyon manatdan artıq təşkil edib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 13,9 faiz artıb.  Vergilərin 67,5 faizi qeyri-neft-qaz sektorunun, 32,5 faizi isə neft-qaz sektorunun payına düşüb. Yəni fiskal yığımların əsas yükü qeyri-neft mənbələrində cəmləşir. Qeyd edilən aylarda təkcə vergilərdə deyil, sosial yığımlarda da artım qeydə alınıb. Dövlət sosial sığorta haqları üzrə daxilolmalar

4 milyard 671,1 milyon manatdan çox olub. Bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,6 faiz və ya 190,8 milyon manatdan çox artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 13,4 faiz artaraq 3,1 milyard manatdan çox təşkil edib.İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2023-cü ilin eyni dövrünə nisbətən 12,3 faiz artıb və 167 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 14,9 faiz artaraq 126,4 milyon manatdan çox təşkil edib. Bu dövrdə icbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 8,4 faiz artıb və 829,4 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 9,6 faiz artaraq 591,2 milyon manat təşkil edib.



2024-cü ilin yanvar-oktyabr aylarında ölkəmizdə investisiya fəallığı da müşahidə edilib. Bu dövrdə  əsas kapitala 14.4 milyard manat məbləğində investisiya yönəldilib. İnvestisiyanın 7,3 milyard manatı və ya 50,8 faizi məhsul istehsalı sahələrinə, 5,1 milyard manatı (35,9 faizi) xidmət sahələrinə, təxminən 2 milyard manatı isə (13,3 faizi) isə tikintiyə sərf olunub. Sərmayələrin 11,9 milyard manatını və ya 83 faizini daxili investisiyalar təşkil edib.

### İnflyasiya sabit qalıb, əhalinin gəlirləri artıb

2024-cü ilin ötən 10 ayında digər müsbət göstəricisi inflyasiya ilə bağlıdır.Bu dövrdə  istehlak qiymətləri indeksi 1,7 faiz təşkil edib. Hesabat dövründə əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb ki, bu da uğurlu sosial-iqtisadi dinamika hesab edilə bilər. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8 faiz artaraq 993 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Eləcə də əhalinin real gəlirləri 7 faizə yaxın artıb.

Ümumilikdə, 2024-cü ilin yanvar-oktyabr ayları üzrə makroiqtisadi göstəricilərdə qeydə alınmış müsbət dinamika Azərbaycan iqtisadiyyatının ili yüksək inkişaf proqnozları ilə tamamlayacağına əsaslar yaradır. Hazırda Azərbaycanda ÜDM-in 5 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3,2-3,5 faiz) yüksəkdir. Bu faktor da ölkəmizdə iqtisadi inkişafı təmin edən mənbələrin dayanıqlılığı və növbəti dövrlər üçün əlavə potensialların səfərbər olunmasına imkan verdiyini təsdiqləyir. Bu tempin ilin sonunda və növbəti ildə də davam edəcəyi, qeyri-neft ÜDM-nin orta artımının 7-8 faiz təşkil edəcəyi gözlənilir.

### Beynəlxalq maliyyə institutlarının hesabatlarında...

Azərbaycan hökumətinin açıqladığı Ortamüddətli Xərclər Çərçivəsi sənədində və İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnoz icmalında 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcəyi öz əksini tapıb. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft ÜDM-in isə 5 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı ehtimal edilir. Bu dinamika sonrakı illər üzrə davamlı şəkildə yüksələcək və 2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 77,8 faizə çatacaq, neft-qaz sektorunun payı isə 22,2 faizə bərabər olacaq.

Qeyd edək ki, bu günlərdə beynəlxalq maliyyə institutlarının açıqladığı hesabatlarda və yenilənmiş proqnoz ssenarilərində Azərbaycanda iqtisadi artımın ümidverici olmasına dair göstəricilər yer alıb. Beynəlxalq Valyuta Fondunun (BVF) dərc etdiyi “Regional iqtisadiyyatın inkişaf perspektivləri” adlı yeni hesabatında 2024-cü ildə ölkəmizdə ÜDM-in nominal dəyərinin 75,6 milyard dollar təşkil edəcəyi əksini tapıb. Eləcə də Dünya Bankı, Asiya İnkişaf Bankının hesabatlarında da 2024-cü ildə iqtisadi artımla bağlı müsbət proqnozlar yer alır.

*E.CƏFƏRLİ*

# Dini Liderlərinin Bakı görüşü...

## “Dünya Dinləri Yaşıl Planet Uğrunda”

*Yeganə BAYRAMOVA*

Azərbaycanın ev sahibliyi etdiyi COP29 tədbiri ərəfəsində Bakıda Dini Liderlərin Qlobal Sammiti baş tutub. “Dünya Dinləri Yaşıl Planet Uğrunda” şüarı altında keçirilən tədbirdə dünya və ənənəvi dinlərin liderləri, müxtəlif konfessiyaları təmsil edən və dünya miqyasında tanınan din və ictimaiyyət nümayəndələri iştirak edib. İki gün davam etmiş qlobal sammitdə 55 ölkəni, 30 beynəlxalq təşkilatı, aparıcı KİV-ləri təmsil edən 220-dən çox qonaq olub.

**Dünyaya verilən mesaj**

Tədbirdə iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, Dini liderlərin Qlobal Bakı sammitinin dünyaya verəcəyi mesaj gələcək təhlükələri dəf etmək üçün son dərəcə mühüm əhəmiyyətə malik olacaq. Komitə sədrinin sözlərinə görə, bu mesajın bir hissəsi beynəlxalq münasibətlər sisteminin subyektlərinə çağırış ola bilər: “Çünki qlobal istiləşmənin fəsadlarını azaltmaq üçün dövlətlərin və beynəlxalq təşkilatların daha gərgin işləməsinə ehtiyac var. Dini liderlərin sammiti, inanclı insanlara tanrının yaratdıqlarını qorumağın vacibliyini bir daha xatırladacaq. Harada yaşamağımızdan, dini əqidəmizdən asılı olmayaraq özümüzün və övladlarımızın gələcəyini qorumaq üçün hər birimizi qlobal iqlim dəyişiklikləri ilə mübarizədə iştiraka dəvət edəcək”.

R.Məmmədov qeyd edib ki, dini liderlər həm də dini, etnik və sosial mənsubiyyətinə fərq qoymadan insanlara çağırış edəcək: “Biz həqiqətən real təhlükənin astanasındayıq. Məsuliyyəti bölüşmək - qlobal çağırışların öhdəsindən gəlmək üçün ən yaxşı mübarizə üsulumuz, ən effektiv alətimiz ola bilər. Dövlətlərin beynəlxalq münasibətlər sistemində iddialarının və insanların həyatda hədəflərinin olduğu reallıqdır. Lakin bu iddia və hədəflər yaşadığımız planetə, təbiətə, ətraf mühitə qarşı ədalətsizliklə nəticələnən fəaliyyətlər hesabına həyata keçirilməməlidir. İddialarımızı və hədəflərimizi ədalət hissimizlə tənzimləsək, bəşəriyyətin gələcəyini xilas edə bilərik. Dini liderlərin sammiti bu orta xətti tapmaqda bəlkə də ən yaxşı platformadır. Çünki ədalət bütün dinlərin fəlsəfəsində dayanan ümumi anlayışdır”.




**Ekoloji böhranların həllində dinlərarası dialoqun rolu**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, dünya əhalisinin 80 faizinin dini inancı var, ona görə də dinlərarası dialoq platforması ciddi əhəmiyyət kəsb edir. O, qeyd edib ki, inanclar fərqli olsa da, planeti qorumaq və bəşəriyyəti inkişaf etdirmək öhdəliyi sərhədləri aşır: “Bəziləri iddia edə bilər ki, ətraf mühitin mühafizəsi mahiyyət etibarilə, inanc məsələsi deyil. Lakin mən hesab edirəm ki, ekoloji böhranlar milli, iqtisadi və mədəni xətləri keçdiyi, bütün cəmiyyətlərə təsir etdiyi, həmçinin planetimiz bütün bəşəriyyət üçün ortaq miras olduğu üçün dinlərarası dialoq çox əhəmiyyətlidir”.

**Dünyada mənəvi-əxlaqi dəyərlər azalır...**

Türkiyənin “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Mehmet Akkan Suver Yer kürəsindəki müharibələrin törətdiyi sosial sıxıntılarla yanaşı, iqlim problemləri də əlavə fəlakətin xəbərçisidir. O qeyd edib ki, dünyada yaşıllıqlar azaldığı kimi, mənəvi-əxlaqi dəyərlər də azalır: “Belə bir anda Bakıda keçiriləcək COP29 bu problemlərin müzakirəsi baxımından çox əhəmiyyətlidir. Azərbaycanın ev sahibliyi etdiyi COP29 tədbirini bəşəriyyətin parlaq gələcəyi adına bir fürsət kimi qiymətləndiririk. Azərbaycanın bu təşəbbüsünün həm də xaos və qarşıdurmalardan, müharibələrdən uzaqlaşmağa şərait yaradacağına inanıram. Bakının dünyaya çağırışı beynəlxalq sülhün təmin edilməsində böyük rol oynayacaq. Dini liderlərin Bakıda görüşü bu təşəbbüsə böyük töhfədir”.

**Bakı Bəyannaməsi qəbul edilib**

Tədbirin sonunda qarşılıqlı etimad, birlik, harmoniya və iqlim dəyişikliyi ilə bağlı maarifləndirmə işində sivilizasiyalararası və dinlərarası münasibətlərin, milli-mədəni dəyərlərin və biliklərin, o cümlədən multikulturalizm ənənələrinin gücləndirilməsinin vacibliyini vurğulanıb. Daha sonra Sammitinin yekun sənədi - Bakı Bəyannaməsi qəbul edilib. Bəyannamədə qeyd olunub ki, dünyanın müxtəlif regionlarından olan xristian, müsəlman, yəhudi, hinduist, buddist və digər din və inanc nümayəndələrinin müasir dünyanı təhdid edən problemlərlə bağlı vahid və yekdil mövqe bildirmək üçün bir araya gəldikləri buna bənzər dinlərarası tədbirlərin mütəmadi keçirilməsi zəruridir.

Xatırladaq ki, COP29 çərçivəsində Dini Liderlərin Qlobal Sammiti noyabrın 5-6-da Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi ilə Bakıda keçirilib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# Ermənistanın müharibə cinayətləri...

## İtkin düşmüş və əsir götürülmüş vətəndaşlarla bağlı növbəti qətnamə

Bəşəriyyətin ən böyük və tarixi problemlərindən sayılan müharibələrin dağıntılarla yanaşı, ölüm, əsirlik və itkinlik kimi dəhşətli nəticələri də var. İtkin düşmüş şəxslər problemi isə münaqişələr və silahlı toqquşmalar zamanı ən ağır humanitar məsələlərdən biri sayılır. Bu problem yalnız fərdləri deyil, onların ailələrini, cəmiyyətləri və bütövlükdə, beynəlxalq hüququ əhatə edən genişmiqyaslı təsirlərə malikdir. Beynəlxalq hüquq, xüsusilə də Cenevrə Konvensiyaları, hərbi münaqişələr zamanı itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsini hərbi cinayətlərin qarşısını almaq və humanitar hüququ qorumaq üçün əsas götürür. Buna baxmayaraq, bir çox hallarda bu problem həll olunmamış qalır, itkin şəxslərin taleyi barədə məlumat əldə etmək çətinləşir, və bu, ailələr üçün uzunmüddətli mənəvi iztirab yaradır.

Azərbaycan müstəqillik qazandıqdan sonra Ermənistanın təcavüzkar siyasəti nəticəsində bu məsələni öz vətəndaşlarının taleyi ilə bağlı prioritet məsələlərdən birinə çevirdi - ölkəmizin 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması, minlərlə insanın itkin düşməsi ilə nəticələndi. Azərbaycan hökuməti itkin düşmüş şəxslərlə bağlı konkret fəaliyyət planları həyata keçirməkdə və bu sahədə beynəlxalq hüquqi mexanizmlərə müraciət etməkdə fəallıq göstərir. Hazırda Azərbaycanın rəsmi qurumları Ermənistanın işğalı nəticəsində 3,890 nəfərin itkin düşdüyünü qeydə alıb. Bu şəxslərin əksəriyyəti hərbi əsirlər və mülki şəxslərdir. Bu problemin həlli, itkin düşmüş şəxslərin axtarışı və identifikasiyası üçün ölkəmiz Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK), BMT və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

### 56 ölkə həmmüəllif qismində qoşuldu

Xəbər verildiyi kimi, BMT Baş Assambleyasının 3-cü Komitəsində Azərbaycan tərəfindən irəli sürülmüş “İtkin düşmüş şəxslər” adlı qətnamə konsensusla qəbul edilib. Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi tərəfindən irəli sürülmüş qətnamə layihəsi üzrə bir ay ərzində üzv dövlətlərlə aparılmış intensiv danışıqlar nəticəsində layihənin mətni razılaşdırılıb. Qətnaməyə 56 ölkə həmmüəllif qismində qoşulub. Qətnamə mətninin Komitədə təqdimatı zamanı Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin birinci katibi Nərmin Ahəngari çıxışında “İtkin düşmüş şəxslər” adlı qətnamənin ilk dəfə 2002-ci ildə BMT Baş Assambleyasının 57-ci sessiyasında Azərbaycanın təşəbbüsü ilə qəbul edildiyini və qətnamənin hər iki ildən bir irəli sürüldüyünü xatırladıb. Ahəngari qətnamənin əsas məqsədinin silahlı münaqişələrin humanitar faciələrindən biri olan itkin düşmə hallarının qabaqlanması və itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqları öhdəliklərinə hörmət və riayətin vacibliyinə diqqətin cəlb edilməsi olduğunu vurğulayıb. Diplomat mətndə əks olunmuş yeni bəndlər barədə üzv dövlətlərin nümayəndələrinə ətraflı məlumat verib. Ahəngari qeyd edib ki, bu ilki qətnamənin mətnində minaların mövcudluğunun itkin düşmüş şəxslərin qalıqlarının aşkarlanması üzrə əməliyyatlara yaratdığı maneələr də öz əksini tapıb. O qeyd edib ki, mətndə əlaqədar dövlətlərin insan qalıqlarının təhlükəsiz axtarışı üçün əməkdaşlıq etmək çağırışları öz əksini tapıb. Qətnamədə eyni zamanda BMT Baş katibindən Baş Assambleyanın 81-ci sessiyasına (2026-cı il) və BMT-nin İnsan Hüquqları Şurasının müvafiq sessiyasına onun icrasına dair müfəssəl hesabat təqdim edilməsi xahiş olunub.

### Kütləvi məzarlıqlar ermənilərin müharibə cinayətlərini ifşa edir...

İkinci Qarabağ müharibəsində qazanılan qələbə nəticəsində 30 ilə yaxın işğalda qalmış ərazilərimiz azad edildi. Bu qələbə həm də adı itkin siyahılarında olan, taleyindən xəbərsiz olduğumuz vətəndaşlarla bağlı informasiyaların əldə olunmasına yaxından vəsilə oldu - xüsusilə, 2020-ci il İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə kütləvi məzarlıqların aşkar edilməsi illərlə itkin statusu daşımış şəxslərin taleyi ilə abğlı qaranlıqları işığa çıxardı. Azərbaycan dövləti bu məzarlıqların tədqiqi və DNT analizi vasitəsilə itkinlərin müəyyənləşdirilməsi üçün yüksək texnologiyalardan istifadə edir. Vurğulanmalıdır ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan geniş miqyaslı tədqiqatlar nəticəsində indiyə qədər 14-dən çox kütləvi məzarlıq aşkar edilib. Bu məzarlıqlarda əsasən Vətən müharibəsindən əvvəl, 1990-cı illərdə əsir götürülmüş və ya itkin düşmüş şəxslərin qalıqları tapılıb. Ən son tapıntılar Füzuli, Xocavənd və Şuşa rayonlarında qeydə alınıb. Bu məzarlıqlarda insan qalıqları ilə yanaşı, işgəncə və qeyri-insani rəftarın izlərini əks etdirən sübutlar da aşkarlanıb. Son məlumatlara görə, 180-dən çox insan qalığının müəyyən edilməsi ilə yanaşı, Ermənistanın beynəlxalq hüququ kobud şəkildə pozduğu daha bir neçə fakt təsbit edilib. Azərbaycan hökuməti bu tapıntıları müvafiq beynəlxalq təşkilatlara təqdim edərək Ermənistanın müharibə cinayətlərinin araşdırılmasını tələb edir.



Paralel olaraq bu cinayətlərin beynəlxalq aləmdə yayılması istiqamətində diplomatik təşəbbüslərimiz də davam edir. Azərbaycan beynəlxalq tribunalarda, o cümlədən BMT və digər təşkilatlarda bu məsələnin həlli üçün hüquqi və diplomatik səylər göstərir. Ermənistan beynəlxalq qurumların dəfələrlə tələb etməsinə baxmayaraq, itkin düşmüş şəxslərlə bağlı informasiya verməkdən imtina edir. Bu, müharibə cinayəti kimi qiymətləndirilir və beynəlxalq hüquq çərçivəsində məsuliyyət daşıyır. Eyni zamanda, Ermənistanın mina xəritələrini təqdim etməkdən imtinası yalnız ərazilərin yenidən qurulmasını çətinləşdirmir, eyni zamanda, itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsini də ləngidir.

Azərbaycanın bu sahədə həyata keçirdiyi diplomatik addımlar isə BMT Baş Assambleyasının 3-cü Komitəsində “İtkin Düşmüş Şəxslər” adlı qətnamənin qəbulu ilə məhdudlaşmır - ölkəmiz Ermənistanın müharibə cinayətlərini beynəlxalq məhkəmələrə çıxararaq hüquqi məsuliyyət tələb edir.

### Azərbaycan beynəlxalq aləmdə fəal iş aparır...

Avropa İnsan Haqları Məhkəməsi və Beynəlxalq Cinayət Məhkəməsində bu məsələlər müzakirə olunur. Azərbaycan, xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində, itkin düşmüş şəxslərin hüquqlarını müdafiə edən təşəbbüslər irəli sürür, bu məsələni qlobal gündəlikdə saxlayır. Təsadüfi deyil ki, aparılan bu fəaliyyət öz nəticəsini verir - 2020-ci ildən sonra azad edilmiş ərazilərdə tapılan faktlar, dünya ictimaiyyətinin bu məsələyə diqqətini artırır və əsl həqiqətlərin yayılmasına yol açır.

Beləliklə, itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi Azərbaycanın milli humanitar siyasətində prioritet məsələlərdən biri kimi yer alır. Ermənistanın törətdiyi müharibə cinayətlərinin ifşa edilməsi və məsuliyyətə cəlb olunması beynəlxalq hüququn icrasında mühüm addım sayılır - Azərbaycanın bu istiqamətdə beynəlxalq uğurları həm də insan haqlarının qorunması və regional sülhün təmin olunmasında mühüm rol oynayır.

*P.İSMAYILOV*

# Zəngəzur dəhlizi açılır?

## Ermənistanın gecikmiş etirafı...

Postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesinin mühüm bir komponentini ölkəmizin əsas hissəsi ilə blokada şəraitində olan Naxçıvanı birləşdirəcək Zəngəzur dəhlizinin açılması təşkil edir. Təəssüf doğuran haldır ki, son üç il yarımda Zəngəzur dəhlizi ilə bağlı müxtəlif səviyyələrdə müzakirələr aparılsa da, hələlik, necə deyərlər, daşı yerindən tərpətmək mümkün olmayıb. Bütün region dövlətlərinin maraqlarına uyğun olan Zəngəzur dəhlizinin açılmasının yubanmasının məsuliyyəti isə bilavasitə məğlub Ermənistanın və bu ölkəyə havadarlıq edən yaxın, uzaq dövlətlərin üzərinə düşür.

### Rəsmi İrəvanın bitib-tükənməyən bəhanələri

“Ermənistan və Azərbaycan regional kommunikasiyaların açılması ilə bağlı qarşılıqlı məqbul həll yoluna yaxındırlar”. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə “hökumət saatı” zamanı deyib. O bildirib ki, Ermənistan kommunikasiyaların açılması ilə bağlı Azərbaycana yazılı təklif göndərib. “Regional kommunikasiyaların açılması məsələsinin hər iki tərəf üçün məqbul sayıla bilən həllini tapa bilərik”, - deyə Ermənistan lideri əlavə edib.

N.Paşinyan “Zəngəzur dəhlizi” ifadəsini işlətməsə də, söhbətin Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirən marşrutdan getdiyi bəllidir. Çünki digər istiqamətlərdən keçən kommunikasiyalarla bağlı müzakirələr aktual deyil, fikir ayrılığı ilk növbədə Zəngəzur dəhlizi ilə bağlıdır. Qeyd edək ki, 44 günlük müharibənin başa çatmasını bildirən üçtərəfli Bəyanatda sözügedən marşrutun yaradılması ilə bağlı konkret müddəa yer alıb.

Lakin aradan illər ötsə də, məğlub Ermənistan imzasına hörmət bəsləməyərək üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyib və özünün məsuliyyətsiz davranışlarına əsassız arqumentlərlə haqq qazandırmağa çalışıb. Bəyanata əsasən, yüklərin və sərnişinlərin Azərbaycanın qərb hissəsindən Naxçıvana asan, maneəsiz keçidi təmin edilməlidir ki, bu da çox doğru olaraq dəhliz anlamında qəbul olunur. Ermənistanın hərbi-siyasi rəhbərliyi isə müxtəlif Qərb dairələrindən gələn diqtələrə qulaq asmaqla bunu indiyədək suverenliyinin pozulması kimi şərh edib və proseslərin irəliləməsinin qarşısını almağa çalışıb. Bəli, N.Paşinyan və onun hökumətində yer alan rəsmilər beynəlxalq auditoriyaları inandırmağa çalışırlar ki, onlar kommunikasiyaların açılmasına razıdırlar. Masada konkret müzakirələrə gəldikdə isə yenə də absurd “suverenlik” bəhanəsi kötük kimi yolun ortasına atılır.

### “Sülh kəsişməsi” yaramır...

Aydın məsələdir ki, burada söhbət yalnız Ermənistan rəhbərliyinin siyasi iradəsindən getmir. Sirr deyil ki, Ermənistanın indiki iqtidarı Qərbin layihəsi qismində hakimiyyətə gəlib və rəsmi İrəvan qərarları verərkən mütləq qaydada hami dairələrlə, Fransa, ABŞ kimi ölkələrlə məsləhətləşmələr aparır. Qərb dairələri isə sözügedən marşrutun üçtərəfli Bəyanatın şərtləri əsasında açılmasına qarşıdırlar ki, bunun da səbəbləri var. Zəngəzur dəhlizi Transxəzər marşrutunun (Orta dəhliz) davamı kimi inkişaf etdirilə bilər. Beləliklə, Avrasiyada daşımalar asanlaşacaq ki, bu da indiki gərgin geosiyasi reallıqlar fonunda müstəsna önəm daşıyır. Söhbət burada çox böyük həcmlərdə yüklərin daşınmasından gedir. Elə buna görə də Qərb dairələri belə bir strateji marşrutun ixtilafda olduqları Rusiyanın nəzarəti altında fəaliyyət göstərməsini qəbul etmirlər. Təbii ki, uzaq coğrafiyalarda yerləşən Qərb dövlətləri Zəngəzur dəhlizi ilə bağlı qərar verə bilməzlər, son sözü Ermənistan və Azərbaycan deməlidir. Bu reallıq fonunda Qərb layihəsi olan N.Paşinyan iqtidarı Fransadan, ABŞ-dən gələn direktivlərdən çıxış etməklə indiyədək Zəngəzur dəhlizinin yaradılmasını əngəlləməyə çalışıb.

N.Paşinyanın sözügedən açıqlamasına müxtəlif versiyalar üzərindən fikir bildirmək mümkündür. Optimist olsaq, o qənaəti ifadə edə bilərik ki, Ermənistanın siyasi hakimiyyəti artıq həqiqət anını dərk edərək son üç il yarımda Zəngəzur dəhlizinin yaradılması fürsətinin itirilməsinin ilk növbədə bu ölkənin özü üçün ziyanlı olduğunu başa düşüb. Həqiqətən də, Zəngəzur dəhlizinin açılması və onun Transxəzər marşrutunun bir qolu kimi inkişaf etdirilməsi Ermənistanı “dalan ölkə” olmaqdan xilas edəcək. Ermənistanın xarici aləmə çıxışı çox məhdudur. Hava nəqliyyatını istisna etsək, bu ölkənin Avropa məkanına çıxışı yalnız Gürcüstanın Lars keçid məntəqəsi vasitəsi ilə mümkündür. Qeyd olunan məntəqənin isə buraxıcılıq imkanları geniş deyil və qış aylarında burada ağır tonnajlı avtomobillərin hərəkəti günlərlə mümkünsüz hala gəlir.

Ermənistanın özünün irəli sürdüyü “Sülh kəsişməsi” deyilən layihənin də hər hansı bir perspektivi yoxdur. Bu layihəni reallaşdırmaqdan ötrü böyük həcmlərdə investisiyalar yönəltmək, çətin relyef şəraitində zəruri infrastruktur qurmaq tələb olunur. Kasıb, iqtisadiyyatı kiçik olan Ermənistana hansı investor sərmayə yönəltməyə tələsəcək? N.Paşinyan indiyədək kağız-kuğuz əlində Avropada çox qapıları döysə də, heç bir beynəlxalq maliyyə qurumu uğursuz layihəyə pul xərcləmək istəməyib. Beləliklə, bəlkə, N.Paşinyan Zəngəzur dəhlizinin ölkəsi üçün dünyaya açılan bir qapı olduğu həqiqətini qəbul edir? Qarşısında başqa çıxış yolu görmür?




### Azərbaycanın mövqeyi: Razılıq çoxdan əldə olunmalı idi

Ancaq Ermənistan hakimiyyətinin son üç il yarımda sərgilədiyi tərəddüdlü davranışları göz önünə gətirdikdə N.Paşinyanın son açıqlamasında səmimi olduğunu söyləmək çətindir. İndiyədək biz başda baş nazir olmaqla Ermənistan iqtidarının ayrı-ayrı təmsilçilərinin verdikləri sözü geri götürdüklərinin, mövqelərini tez-tez dəyişdiklərinin şahidi olmuşuq. Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov erməni tərəfinin iki ölkə arasında kommunikasiyaların açılması ilə bağlı bəyanatlarına cavab olaraq xatırladıb ki, bu, yeni mövzu deyil. “2020-ci il üçtərəfli Bəyanatda buna dair xüsusi bənd mövcuddur. Orada Ermənistanın üzərinə götürdüyü öhdəliklər var. Mövzu uzun müddətdir müzakirə predmetidir. Üç il yarım müzakirələrdən sonra “razılıq əldə olunub” sözü hesab edirik ki, gecikmiş sözdür. Bu razılıq çoxdan əldə olunmalı idi”, - deyə Azərbaycan XİN-in rəhbəri vurğulayıb. C.Bayramov bildirib ki, əgər bununla bağlı elanlar yoxdursa, rəsmi sənəd yoxdursa, Ermənistan tərəfindən bu istiqamətdə heç bir işə başlanmayıbsa, deməli, hələ də açıq məsələlər mövcuddur. Fikirlərini tamamlayan C.Bayramov deyib: “Azərbaycan öz ərazisində nəqliyyat kommunikasiya infrastrukturunun yaradılması ilə bağlı artıq uzun müddətdir işləri sürətlə aparır və həmin infrastruktur Ermənistanla sərhədə kimi yaxın zamanda çatdırılacaq”.

Bu aradan qonşu İranın İslam İnqilabı Keşikçiləri Korpusundan (SEPAH) gələn bəyanat da diqqət çəkməyə bilməz. Zəngəzur dəhlizi ilə bağlı müzakirələrin intensivləşdiyi bir vaxtda SEPAH yenə də mücərrəd “qırmızı xətt” məsələsini qabardır. SEPAH nə üçün Ermənistan əvəzinə danışmalı və yaxud Zəngəzur dəhlizini ölkəsi üçün bu qədər təhlükəli sanmalıdır? “Əgər Azərbaycan Ermənistan və İran arasında coğrafi sərhədləri dəyişdirmək üçün addımlar atsa, bu, ciddi nəticələrə səbəb ola bilər” açıqlaması ilə çıxış edən SEPAH

### SEPAH niyə əndişələnir?

görəsən hansı reallıqlara əsaslanır? Axı Azərbaycanın qonşu dövlətlərə qarşı hansısa bir ərazi iddiası yoxdur və biz sərhədlərin güc yolu ilə dəyişdirilməsi barədə planlar qurmuruq. Əgər SEPAH bu qədər sərhəd təəssübkeşidirsə, onda nə üçün Ermənistanın Azərbaycan-İran sərhədini dağıtmasına, bu sərhədləri 30 il ərzində öz nəzarətində saxlamasına göz yumub?

*Mübariz FEYİZLİ*

# Separatizm dəstəkçisinin iqlim "təəssübkeşliyi"...

## Peloni ermənilərin işğal edilmiş ərazilərimizdə törətdiyi ekoterrora niyə göz yumub?

## Frenk Peloninin qlobal iqlim müzakirələrinə qatılmağa, bu barədə fikir bildirməyə mənəvi haqqı çatmır...

Qlobal siyasi məkanın ən mühüm tədbirlərindən sayılan və Azərbaycanın təşkilatçılığı ilə reallaşan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bütün dünyanın diqqətini özünə cəlb edib. Hələ ötən ildən başlayaraq ölkəmizin bu tədbirə ev sahibliyi edəcəyi müəyyənləşəndən sonra COP29-a qarşı fərqli münasibətin şahidi olmuşduq - qlobal iqlim təhlükəsizliyi uğrunda səmimi mübarizə sərgiləyən, kiçik dövlətlərin qaz emissiyalarından çəkdiyi əziyyətlərdən çıxış yolu axtaran, beynəlxalq hüququ və ədaləti əsas prinsip kimi qəbul edən ölkələr və şəxslər Azərbaycanın bu məsuliyyətli və ciddi tədbirə ev sahibliyini bütün səyi ilə dəstəkləmişdilər. Ölkəmizə qarşı xəbis planların iştirakçısı olan, ermənipərəst maraqların köləsinə çevrilən, korrupsiya və rüşvət qarşılığında anti-Azərbaycan təbliğatı aparanlar isə narahat olmaqla yanaşı, ötən dövrdə COP29-a və konkret Azərbaycana qarşı kampaniyalar yaratmağa cəhd göstərirdilər. Amma onların bu istək və arzuları, xəbis cəhdləri baş tutmadı - Azərbaycan artıq günlərdir ki, bu mühüm qlobal tədbirə ev sahibliyi edir. Maraqlı orasıdır ki, Azərbaycana və COP29-a qarşı kampaniya aparanların bəziləri hətta utanmadan Bakıya səfər edərək bu tədbirə qatılmaq belə "istəyib". Məsələn, ABŞ konqresinin energetika və ticarət Komitəsinin üzvü olan Frank Peloni də məhz belələrindəndir. Xatırladaq ki, BMT tərəfindən tədbirə dəvət edilmiş Peloninin Bakıya gəlişinə dinc şəkildə etiraz edən vətəndaş cəmiyyəti institutunun nümayəndələri konqresmenin mühafizəçiləri tərəfindən şiddətə məruz qalıblar. ABŞ konqresmeninin göstərişi ilə şiddətə məruz qalmış QHT təmsilçiləri bununla bağlı birgə bəyanat yayıb. Noyabrın 17-də isə Azərbaycanın bir qrup QHT rəhbərləri və ictimai fəalı xalqımızı təhqir etmiş ermənipərəst ABŞ konqresmeni Frank Peloniyə qarşı qaldığı hotelin qarşısında növbəti dəfə etiraz aksiyası keçirib.

### Ermənipərəst fırıldaqçı, korrupsioner islamofob...

Bəli, islamofob, türkofob, maliyyə fırıldaqçısı, korrupsioner kimi şöhrət qazanan konqresmen Frank Peloninin erməni yandaşı olması sirr deyil. O, ABŞ-da "ermənidən betər erməni" kimi tanınan şəxslərdəndir - Peloninin konqresdə ermənilərin çoxluq təşkil etdiyi Nyu-Cersi ştatını təmsil etməsi də bu faktı təsdiqləyir. Erməni təbliğatının sınıq təkəri olan Peloni var gücü ilə ölkəmizə qarşı aparılan antimilli kampaniyaları təşkil edir, dəstəkləyir. Onun xüsusilə, 44 günlük Vətən müharibəsi və 2023-cü il antiterror əməliyyatlarından sonra fəallaşması diqqəti cəlb edir. İqlim dəyişikliyinin qarşısını almağı hədəfləyən bir konfransda iştirak üçün BMT tərəfindən dəvət edilən bu şəxs ermənilərin 30 ilə yaxın yürütdyü zorakılığı və işğalı dəstəkləyib - paralel olaraq, ermənilərin Azərbaycan torpağında törətdikləri ekoloji təcavüzü belə normal qarşılayıb. Belə bir şəxsin iqlimin müdafiəsinə həsr edilmiş qlobal konfransa qatılması nonsens sayılmalıdır...




### Peloninin azərbaycanlı qaçqınlarla görüşdən imtinası...

1951-ci ildə ABŞ-ın Nyu-Cersi ştatının Lonq Branç şəhərində anadan olmuş Peloni ixtisasca hüquqşünas olsa da, daha çox siyasətlə məşğul olur. Demokrat Partiyasının üzvü kimi 1988-ci ildən Nyu-Cersi ştatının 6-cı Konqres dairəsini ABŞ parlamentində təmsil edən Peloni sırf ermənipərəst biri kimi tanınır. Hələ 1992-ci ildə qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na "907-ci düzəlişin dəstəkçilərindən və təbliğatçılarından sayılan Peloni ölkəmizə qarşı mənfi münasibəti ilə seçilib - 1999-cu ildə Konqresin bir qrup nümayəndəsi ilə Azərbaycanda səfərdə olan zaman çadır şəhərçiklərində yaşayan qaçqın və məcburi köçkünlərlə görüşdən imtina etmiş yeganə deputat olub.

### Erməni qrupunun yaradıcısı - separatizmin dəstəkçisi...

Peloni 1995-ci ildə ABŞ Konqresində "Erməni qrupu" (Armenian Caucus) adlı erməni məsələləri üzrə qrupu yaradan iki şəxsdən biridir. Xatırladaq ki, bu qrupda təmsil olunanlar erməni lobbisinin ən fəal üzvləri ABŞ-ın Azərbaycana dövlət yardımının qarşısını alan 907-ci düzəlişin qəbul olunmasına səy göstərən şəxslərdir.

2020-ci ildə isə Frank Peloni Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Qarabağ bölgəsində yaradılmış separatçı rejimə "müstəqilliyinin ildönümü" münasibətilə təbrik ünvanlamışdı.

Bu ilin sentyabrında isə Peloni ABŞ Konqresində müzakirəyə çıxarılan Azərbaycanın Qarabağa "təcavüzü" ilə bağlı "Artsax Gəlirlərinin Bərpası Aktı"nın müəlliflərindən biridir. "Təklif"də birmənalı olaraq bölgədə qeyri-sabit durum yaratmaq, Azərbaycanın suveren hüquqlarının pozulması, gərginliyin artırılması (burada hətta müharibəyə təhriklə bağlı epizodlar belə yer alır - P.İ), demokratiyanın pozulması halları "göz oxşayır".

### Fürsətcil Peloni cinayətkarların azadlığına çalışır

BMT-nin strukturları tərəfindən COP29-a dəvət olunmuş Peloni bu tədbirə qarşı "mübarizə aparan", nəticəyə nail ola bilmədikdə isə ən azından yaranan fürsətdən istifadə etməyə çalışan fəal ermənipərəstlərdən olub - belə ki, oktyabrın 3-də ABŞ Dövlət katibi Antoni Blinkenə məktub yazaraq Azərbaycana qarşı qəbuledilməz mövqe ifadə edənlərin arasında konqresmen Peloni də olub. Peloni Azərbaycanın COP29-a ev sahibliyi etməsindən istifadə edərək, Ermənistanın gündəliyinə və regionda yenidən münaqişə yaratmağa xidmət edən bütün məsələlərin, o cümlədən müharibə cinayətlərinə görə məsuliyyət daşıyanların azadlığa buraxılması kimi beynəlxalq hüquqa zidd məsələlərin irəlilədilməsinə çalışıb.

Əslində, bu da təsadüfi deyil - Peloni bütün fəaliyyəti dövründə separatizmi dəstəkləyib. Hələ 2022-ci ildə Frenk Peloni bəzi konqresmenlərlə birgə Nümayəndələr Palatasına və Senatın Təxsisatlar üzrə Alt Komitələrinə müraciət edərək ABŞ hökumətinin Ermənistana və Qarabağdakı separatçılara 2 milyon dollar həcmində maliyyə dəstəyi göstərməsinə nail olmuşdular.

### Qaranlıq "kimliyə" malik Peloninin işıqlı tədbirdə nə işi var?



Qeyd edək ki, ermənipərəst konqresmen Frank Peloninin dünən ölkəmizi tərk etməsi xəbəri yayılıb. Bu barədə bəzi KİV-lərə diplomatik mənbələrdən məlumat daxil olub. Bildirilib ki, əslində, Frank Peloni noyabrın 18-dən COP29-da iştirak etməyi, Bakıda çoxsaylı görüşlər keçirməyi planlaşdırıbmış. Bu məqsədlə o, ötən şənbə günü günorta Bakıya gəlsə də, etirazlarlarla qarşılanıb və paytaxtımızı tərk edib.

Bu, "qaçış" Peloninin yeganə çıxış yolu idi - həqiqətlərlə üzləşməkdən, yalanlarının üzünə deyilməsindən çəkinən Peloni növbəti dəfə özünü ifşa edib. Bu "qaçış" həm də qanunauyğunluqdan qaynaqlanır - çünki Peloninin qaranlıq siyasi fəaliyyəti aydın gələcək üçün strateji yol xəritəsinə çevrilən COP29-un mahiyyəti ilə uyğun gəlmir. Onun təxribatçı, separatizmi dəstəkləyən, antimilli mövqeyi iqlim humanizmi ilə tərs mütənasibdir - Peloni kimiləri hər zaman gərginlik, müharibə, dağıntı və vandalizm təbliğatçısı kimi tanınır. Belə olmasaydı, Peloni ötən 30 ildə Azərbaycanın işğal edilmiş ərazilərində ermənilərin törətdiyi ekoterrora qarşı səsini ucaldardı. O isə tam əksinə, bu ekoterroru dəstəkləyib. Ortadakı faktlar isə onu göstərir ki, Peloninin qlobal iqlim müzakilərinə qatılmağa, bu haqda fikir bildirməyə mənəvi haqqı çatmır...

***P.İsmayılov***

# İcazə qərarı cəbhədə vəziyyəti dəyişəcəkmi?

## Bu qərar Trampın Ağ Evə qayıdışından sonra Ukraynaya silah tədarükünün azalması ehtimalı ilə bağlıdır

Hazırda Rusiya və Ukrayna orduları arasında şiddətli döyüşlər davam edir. Beynəlxalq ictimaiyyətin müharibənin dayandırılması ilə bağlı çağırışları isə nəticə vermir. Əksinə, son vaxtlar Rusiya ordusu hücumlarını daha da gücləndirib və Ukrayna ərazisində yeni yaşayış məntəqələri ələ keçirir.

Belə bir şəraitdə Ukrayna hakimiyyəti Qərb ölkələrindən daha güclü dəstək istəyir. Belə ki, Prezident Zelenski uzun müddətdir müttəfiqlərin verdiyi silahlarla Rusiya ərazisinin dərinliklərindəki hərbi hədəfləri vurmaq üçün icazə almağa çalışırdı. Kiyev hesab edir ki, dərinliklərdəki hədəflər vurularsa, Rusiyanın hücumları əhəmiyyətli dərəcədə azala bilər.

### ABŞ, Böyük Britaniya və Fransa Kiyevə gözlənilən icazəni verib

Məhz bu səbəblərdən bir müddət idi ki, ABŞ və Böyük Britaniya hökumətləri Ukraynanın Rusiya ərazisinə uzaqmənzilli zərbələr endirməsinə icazə verilməsini müzakirə edirdilər. Burada söhbət həm də ABŞ-nin naviqasiya məlumatları ilə Britaniya qanadlı raketlərinin istifadəsindən gedir. Bu məsələ sentyabr ayından xüsusilə aktuallaşmışdı. Kiyev Rusiya ərazisindəki hərbi obyektlərə zərbələr endirmək üçün daha güclü Qərb silahlarında israr edərkən, rəsmi şəxslər Ağ Evin Ukraynaya sərhədyanı hücumlarda Böyük Britaniyanın "Storm Shadow" raketlərindən istifadəyə icazə verib-verməyəcəyi barədə də danışıblar.

Hətta "Politico" nəşri sentyabrda ABŞ və Böyük Britaniya Rusiyaya zərbələr endirilməsinə qoyulan məhdudiyyətləri aradan qaldıra biləcəyini yazmışdı. Bu razılaşmanın sentyabrın 24-dən 30-dək NyuYorkda keçirilən BMT Baş Assambleyasının yüksək səviyyəli həftəsində elan ediləcəyi gözlənilsə də, belə olmadı. Həmin vaxt bu haqda qərar açıqlanmasa da, razılaşmanın gizli saxlanıldığı ehtimal olunurdu.

Artıq ABŞ və digər bəzi Qərb ölkələrinin Ukraynaya belə bir icazə verdiyi açıqlanıb. "The New York Times" öz mənbələrinə istinadən məlumat yayıb ki, ABŞ Prezidenti Cozef Bayden Birləşmiş Ştatların uzaqmənzilli silahları ilə Rusiya Federasiyasının ərazisinə zərbələr endirməyə icazə verib. Qeyd edilir ki, bu qərar Vaşinqtonda hakimiyyətin dəyişməsindən cəmi iki ay əvvəl qəbul edilib. Bununla bağlı ABŞ liderinin müşavirləri arasında fikirlər parçalanıb. Məlumata görə, raketlər ehtimal ki, Rusiya və Şimali Koreya hərbçilərinə qarşı, Ukrayna Silahlı Qüvvələrinin Kursk bölgəsində müdafiəsini təmin etmək üçün istifadə olunacaq.



### G7 liderləri müharibənin mininci günündə...

"Le Figaro" qəzeti isə yazır ki, Fransa və Böyük Britaniya da Ukraynaya uzaq mənzilli silahlarla Rusiya ərazisinə zərbələr endirməyə icazə veriblər. Məlumata görə, rəsmi Kiyev bu məqsədlər üçün "SCALP/Storm Shadow" raketlərindən istifadə edə biləcək.

Qeyd edək ki, ABŞ, Böyük Britaniya və Fransanın məlum qərarları "Böyük Yeddiliyin" (G7) liderlərinin Rusiya-Ukrayna müharibəsinin başlamasının mininci günü ilə əlaqədar yaydığı bəyanatın fonunda verilib. Bəyanatda G7 liderləri rəsmi Kiyevə daimi dəstəyi bir daha təsdiqləyib, Ukraynanın suverenliyi, azadlığı, müstəqilliyi, ərazi bütövlüyü və yenidən qurulması uğrunda apardığı mübarizəyə töhfə verməkdə həmrəylik ifadə ediblər.

### NATO analoji qərar veribmi?

Xatırladaq ki, hələ bir neçə ay öncə NATO üzvlərindən Danimarka, Niderland və İsveç öz silahlarından Kiyevə Rusiyadakı hədəfləri vurmağa icazə vermişdilər. Həmin ölkələrin birgə açıqlamasında vurğulanırdı ki, Ukraynanın Rusiya ərazisindəki hədəflərə qarşı hərbi əməliyyatlar keçirmək hüququ var. Məsələ ondadır ki, "The Economist" jurnalında dərc olunan məqalədə bütövlükdə NATO-nun Ukraynaya Rusiyaya qarşı uzaqmənzilli raketlərdən istifadə etməyə icazə verdiyi barədə iddialar irəli sürülüb. Jurnal, bunun gələcəkdə hansı nəticələrə səbəb ola biləcəyi ilə bağlı ciddi suallar doğurduğunu qeyd edir. Məqalədə vurğulanır ki, Ukraynanın uzaqmənzilli raketlər vasitəsilə Rusiya paytaxtı Moskvanı hədəf alması ehtimalı beynəlxalq münaqişəni daha da dərinləşdirə bilər. NATO-nun belə bir qərar qəbul etməsi, Rusiya ilə Qərb arasında artıq mövcud olan gərginliyi yeni səviyyəyə qaldıra bilər.

Əsas suallardan biri isə NATO qoşunlarının birbaşa Rusiya ilə toqquşma ehtimalıdır. Jurnal qeyd edir ki, belə bir ssenari baş verərsə, bu, Üçüncü Dünya müharibəsinin başlanğıcı ola bilər. Məqalədə, həmçinin Rusiyanın belə bir ssenaridə cavab olaraq nüvə zərbəsi endirmə ehtimalı nəzərdən keçirilir. Bu ehtimalın reallaşması, qlobal səviyyədə böyük fəlakətlərə səbəb ola bilər. Rusiya dəfələrlə bəyan edib ki, ərazi bütövlüyünə və suverenliyinə qarşı hər hansı bir ciddi hücum ciddi cavabla qarşılanacaq. "The Economist"in məqaləsi hazırkı beynəlxalq münasibətlərin nə qədər gərgin olduğunu və NATO-nun Ukrayna siyasətinin dünya üçün potensial təhlükələr daşıdığını bir daha xatırladır.

### İlon Mask hesab edir ki, Moskvanın cavabı adekvat olacaq

Donald Trampın komandasının üzvü olan milyarder İlon Mask da ABŞ-ın Ukraynaya uzaqmənzilli raketlər göndərməsi ilə edilən zərbələrin Moskva tərəfindən "güzgü" şəkildə cavablandırılacağını bildirib. Maskın açıqlaması ABŞ-ın Ukraynanın silahlanmasını davam etdirməsi və bu silahların Rusiya ilə mübarizədə daha geniş şəkildə istifadə olunacağı gözləntiləri fonunda edilən bir şərhdir. O, bu hadisənin ardından Rusiya tərəfinin cavab zərbələrinin də eyni gücdə və tərzdə olacağına inandığını ifadə edib. Bundan əlavə, Mask Donald Trampın inauqurasiyasına qədər olan iki ayın "çox uzun" olacağını qeyd edib. O, bu dövrün siyasi və geosiyasi baxımdan olduqca gərgin keçəcəyini və ABŞ-ın daxili və xarici siyasətində yeni dəyişikliklərə yol açacağını vurğulayıb. Maskın bu açıqlaması Trampın potensial olaraq ABŞ-ın Ukraynaya dəstəyini azaldacağına dair artan narahatlıqları da əks etdirir.

"The Washington Post" qəzeti də yazır ki, ABŞ Prezidenti Co Baydenin Ukraynaya ATACMS uzaqmənzilli raketlərindən istifadə icazəsi verməsi münaqişənin ümumi gedişatına əhəmiyyətli təsir göstərməyəcək. Nəşr qeyd edir ki, Bayden administrasiyası mümkün qədər Kiyevə geniş dəstək göstərməyə çalışır. Bunun səbəbi Donald Trampın Ağ Evə qayıdışı ehtimalıdır, çünki o, Ukraynaya silah tədarükünü azalda bilər.

***N.BAYRAMLI***

# Gürcüstanda parlament seçkiləri başa çatsa da...

## Seçki ajiotajı davam edir

Qonşu Gürcüstanda oktyabrın 26-da keçirilən parlament seçkiləri artıq tarix olsa da, ölkədə hələ də seçki ajiotajı səngiməyib. Seçkiləri udan və yenidən hökuməti formalaşdırmaq səlahiyyəti qazanan hakim komanda ilə müxalifət qüvvələri arasında qütbləşmə hər ötən gün daha da dərinləşir. "Gürcü arzusu - Demokratik Gürcüstan" Partiyası seçkiləri xalqın iradəsi ilə qazandığını bildirir. Ayrı-ayrı partiyaların və prezident Salome Zurabişvilinin ətrafında cəmləşən qüvvələrin birləşdiyi müxalifət isə məğlubiyyətini qəbul etmir. Mərkəzi Seçki Komissiyası son nəticələri elan etdikdən sonra Tbilisidə və ayrı-ayrı regionlarda etirazların yeni dalğası başlayıb.

### Seçkilərin nəticələrinin yekun protokolu təsdiqlənib

Gürcüstan Mərkəzi Seçki Komissiyası (MSK) oktyabrın 26-da keçirilən parlament seçkilərinin nəticələrinin yekun protokolunu təsdiqləyib. Protokolu noyabrın 16-da keçirilən iclasda MSK sədri və katibi imzalayıblar. MSK sədri Giorgi Kalandarişvili, həmçinin qalib partiyaları və Gürcüstan parlamentinin deputatı mandatını almış şəxsləri təbrik edib, onlara uğurlar arzulayıb.

G.Kalandarişvili deyib: "Yekun protokol tərtib olunub. Bununla da biz, əslində, seçki dövrünü başa vururuq. Bununla yanaşı, seçki müddətinin başa çatması ilə əlaqədar, bu gündən etibarən həm müvəqqəti, həm də yuxarı komissiyalar tərəfindən təyin edilmiş, habelə partiyanın dairə seçki komissiyaları üzvlərinin aşağı komissiyalarda səlahiyyətləri faktiki olaraq dayandırılır".

Elan olunan yekun nəticələrə əsasən, hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası on birinci çağırış Gürcüstan parlamentində 150 mandatdan 89-nu qazanıb. MSK-nın yekun protokoluna görə, qalan 61 mandatdan 19-na "Dəyişiklik üçün Koalisiya", 16-sına "Birlik - Milli Hərəkat", 14-nə "Güclü Gürcüstan", 12-nə isə "Qaxariya Gürcüstan üçün" partiyaları sahib olublar. Bununla da Gürcüstanın hakim partiyası rekord nəticə ilə - seçicilərin təxminən 54 faizinin dəstəyini alaraq dördüncü dəfə hökumətdə qalmağa nail olub.



### Ümidini Qərbə bağlayan müxalifət

MSK-nın bəyan etdiyi nəticələrlə hesablaşmayan müxalifət nümayəndələri seçkilərin saxtalaşdırıldığını iddia edərək, nəticələrin ləğvini və yeni seçkilərin keçirilməsini istəyirlər. Müxalifət liderləri, o cümlədən prezident Zurabişvili Tbilisidə keçirilən mitinqlərdə çıxış edərək, seçicilərin səslərinin oğurlandığını və Gürcüstanın Avropa yolunun müdafiə olunmasının vacibliyini vurğulayırlar. Xatırladaq ki, hazırda Gürcüstan prokurorluğu seçki saxtakarlığı iddiaları ilə bağlı araşdırma aparır və prezident Zurabişvili də ifadə vermək üçün çağırılıb. Lakin o, bu çağırışa əməl etməyib və sübutların müstəntiqlər tərəfindən toplanmalı olduğunu bildirib.

Gürcüstan Mərkəzi Seçki Komissiyasının parlament seçkilərinin nəticələrinin yekununa həsr edilən iclası da qalmaqalsız ötüşməyib. Gürcüstan KİV-in məlumatına görə, komissiyanın müxalifətçi üzvü, Milli Hərəkatın nümayəndəsi David Kirtadze Mərkəzi Seçki Komissiyasının sədri Georgi Kalandarişvilinin üzərinə qara boya töküb. "Siz gürcü xalqını eşitmirsiniz, etirazçıların tələblərini dinləmirsiniz. Siz Gürcüstanın, bizim gələcəyimizi əlimizdən aldınız, ölkəmizi Rusiyaya tərəf qovursunuz. Mən sizə sədr də deyə bilmərəm, siz "nöqtə ru" sunuz. Sən qara ləkəsən", - deyə Kirtadze bir stəkan tünd rəngli mayeni Kalandarişvilinin üzünə atıb.

Bundan sonra dava düşüb və iclas yarımçıq kəsilib.Hakimiyyətin əleyhdarları hesab edirlər ki, seçkilər zamanı səsvermənin gizliliyi pozulub - bülletenlərin arxa tərəfində marker işarələri var. Onlar təkid edirlər ki, bu səbəbdən elektron seçki qutuları quraşdırılan məntəqələrin 90 faizində seçkinin nəticələri ləğv edilməlidir. Yerli qeyri-hökumət təşkilatlarının və müxalifətin müvafiq tələbləri Gürcüstan məhkəmələri tərəfindən təmin edilməyib.

Eyni zamanda, MSK-nın ofisinin yaxınlığında etiraz aksiyası keçirilir. Orada seçkilərin saxtalaşdırıldığını hesab edən bir neçə yüz adam toplaşıb. Tbilisi Dövlət Universitetinin yaxınlığında 20-dək çadır qurulub. Bir neçə ünvanda etirazçılar tonqallar yandırıblar. Aksiyalar səbəbindən Melikişvili, Varazisxevi, Çavçavadze prospektlərində, Kekelidze küçəsində və bəzi başqa ünvanlarda avtomobillərin hərəkəti çətinləşib. "Yeni seçkilərin keçirilməsinə nail olmaqdan ötrü aksiyaların davam etdirilməsi zəruridir. Parlamentin legitimliyi tanınmamalı, "Xalq parlamenti" formalaşdırılmalı, prezident Zurabişvili dəvət olunaraq bu parlamentin fəxri sədri seçilməli, gələcək fəaliyyət planı hazırlanmalı, Qərbdəki dost dairələrə nümayəndələr göndərilməlidir", - deyə "Güclü Gürcüstan" Partiyasının lideri Mamuka Xazaradze sosial şəbəkə hesabında yazıb.

Sözügedən partiyanın digər bir funksioneri Salome Samadaşvili isə bildirib ki, dörd müxalifət partiyası Avropa İttifaqı ölkələrinin xarici işlər nazirlərinə məktub ünvanlayıb. Məktubda Avropalı nazirlərdən kömək istənilir.

Göründüyü kimi, Gürcüstan müxalifəti öz dayaqlarını gürcü xalqında deyil, ölkə hüdudlarından kənarda axtarır. Yeri gəlmişkən, etiraz aksiyalarının məhz Qərbdən idarə olunduğu barədə versiyalar səslənməkdədir. Bu, əslində Qərbin indiyədək bir sıra ölkələrdə sınaqdan keçirdiyi ənənəvi taktikadır. Qərb Cənubi Qafqazda mövcudluğunu təmin etmək planlarını həm də Gürcüstan üzərindən reallaşdırmaq istəyir. Ancaq hələlik buna müyəssər olmur.

### Hakimiyyət siyasi qətiyyət nümayiş etdirir

Qonşu və dost ölkənin siyasi rəhbərliyi Gürcüstanın milli maraqlarını və ləyaqətini qorumağı bacarır. Son parlament seçkiləri də Qərbin diktəsi ilə deyil, xalqın seçimi əsasında baş tutub. "Gürcüstanın 11-ci çağırış parlamentinin ilk iclası noyabrın 25-də keçiriləcək". Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib. Onun sözlərinə görə, heç bir ölkədə parlamentin legitimliyini müxalifətin tanıması tələb olunmur, əks halda dünyada demokratiya olmazdı. "Gürcüstanın hələ də formal prezidenti olan Salome Zurabişvili parlamentin ilk iclasını təyin etməməklə ölkə Konstitusiyasını növbəti dəfə pozacaq. Belə olan halda Gürcüstan parlamenti seçkilərin rəsmi nəticələrinin dərcindən sonra düz 10-cu gündə, yəni noyabrın 25-də toplaşacaq. Bunu konstitusiya müəyyən edir", - deyə İ.Kobaxidze vurğulayıb.

Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili isə Avropa İttifaqına üzv 8 ölkənin (Almaniya, Finlandiya, İsveç, Fransa, Litva, Latviya, Estoniya, Polşa) parlamentarilərindən ibarət nümayəndə heyəti ilə görüşdən imtina edib. Şalva Papuaşvili bu barədə özünün "Facebook" səhifəsində yayıb. Papuaşvili deyib ki, "bu qrup" onunla və parlamentin bəzi komitələrinin sədrləri ilə görüş istəyib. O, bundan imtina edib. İmtinanın səbəbini yazılı şəkildə izah edib.

Şalva Papuaşvili onları qeyri-dost münasibətdə və Gürcüstanda keçirilən parlament seçkilərinə müdaxilədə ittiham edir: "Baxmayaraq ki, Gürcüstan hökuməti Avropa İttifaqının bütün müvafiq və maraqlı tərəflərlə dialoqun təşviqinə sadiq qalır, ancaq mən bu görüşləri keçirmək niyyətinə müsbət cavab verə bilmərəm", - deyə Papuaşvili vurğulayıb.

Parlamentin sədri deyib ki, seçkiqabağı təşviqat kampaniyası zamanı nümayəndə heyətinin bəzi üzvləri və digər xarici siyasətçilər Gürcüstanın hakim partiyasına qarşı ictimai kampaniya aparıblar. Onlar müxalifəti dəstəkləməklə Gürcüstan qanunvericiliyini davamlı və məqsədyönlü şəkildə pozub, bununla da vətəndaşların iradəsinə qeyri-qanuni təsir göstərməyə cəhd ediblər. Papuaşvili yuxarıda qeyd olunanları nəzərə alaraq, nümayəndə heyətindən alınan görüş xahişi ilə razılaşmağı qeyri-mümkün hesab edib.

*Mübariz FEYİZLİ*

# Abxaziya qarışdı...

## Etirazçılar nə istəyir?

Tanınmamış Abxaziyanın Rusiya ilə bağlanmış investisiya sazişinə qarşı etirazlar siyasi gərginliyi artırıb. Qeyd edək ki, tanınmamış Abxaziya rəsmi Moskva ilə investisiya sazişi bağlayıb və bu sazişə görə, Rusiya şirkətləri Abxaziya ərazisində xüsusi imtiyazlar əldə edir. Abxaziya müxaliəti isə bu sazişin yerli biznesin sıxışdırılmasına gətirib çıxaracağını deyir. Etirazlar noyabrın 11-də təhlükəsizlik qüvvələrinin beş müxalifətçini saxlamasından sonra güclənib. Fəallar sərbəst buraxıldıqdan sonra mitinqlər müvəqqəti olaraq dayandırılıb, lakin noyabrın 15-də parlament sazişin ratifikasiyası məsələsinə baxmaq üçün toplaşacağını bildirəndə etirazlar yenidən başlayıb.

## Bjaniya istefa verməyə razıdır, saziş isə ratifikasiya edilmədi...

### Bjaniya kəndinə qayıtdı...

Qeyd edək ki, etirazlar başlanan zaman müxalifət hakimiyyətdən Rusiya ilə investisiya sazişinin ratifikasiyasından tamamilə imtina etməyi, tanınmamış respublikanın "prezidenti" Aslan Bjaniyanın isə istefa verməsini tələb edirdi. Administrasiya binasını tərk edərək doğulduğu Tamış kəndinə "sığınan" Bjaniya əvvəlcə Suxumda baş verənləri dövlət çevrilişinə cəhd adlandırıb və o, "seçilmiş prezident" olaraq qaldığını bildirib, problemin güclə həll ediləcəyi təqdirdə "sabitliyin pozulması, iqtisadi itkilər və humanitar böhran" barədə xəbərdarlıq edib. Qeyd edək ki, sonradan proses daha da şiddətlənib və ard-arda "hökumət strukturlarının" binaları etirazçılar tərəfindən alınıb. Bjaniya isə etirazçılar tərəfindən ələ keçirilən hökumət binalarının azad ediləcəyi təqdirdə istefa verməyə razılaşıb. Müxalifət razılaşmadan imtina edərək "müvəqqəti hökumət" yaradacağını bəyan edib.

### 13 yaralı...

Xarici KİV-lərin məlumatına görə, etirazlar yalnız Bjaniyanın siyasətinə qarşı yönəlib - hədəf heç də iddia edildiyi kimi, Rusiya deyil. Etirazçıların Rusiyanı "strateji tərəfdaş" və "yeganə təhlükəsizlik təminatçısı" adlandırdığını bildirən KİV-lər hətta mitinqlərdə Rusiya bayraqlarının dalğalandırıldığını belə önə çəkiblər.

Qeyd edək ki, ötən bir neçə gün ərzində şiddətlənən qarşıdurmalar zamanı nümayişçilər hökumət binalarının ətrafındakı çəpərlərin bir hissəsini sökərək parlament və prezident administrasiyasına hücum ediblər. Onlar polisə yumurta və şüşə qabları atıblar. Yerli polis isə buna tüstü bombaları ilə cavab verməli olub. Parlament yaxınlığında atəş səsləri eşidilib - yayılan məlumatlara görə, 13 nəfər yaralanıb, onlardan üçü xəstəxanaya yerləşdirilib.

### Bjaniya növbədənkənar seçki təklif edir...

Abxaziya parlamenti isə Moskva ilə bağlanan investisiya sazişinin ratifikasiyası üzrə planlaşdırılan iclası ləğv edib. Daha sonra prezident administrasiyası sazişi geri çəkiləcəyinə söz verib. Aslan Bjaniya vəziyyətdən "qanuni konstitusion çıxış yolu" təklif etsə də, qarşı tərəf bununla razılaşmayıb. "Prezident" bildirib ki, prosesin bu formada inkişafı sabitliyin daha da pozulmasına, iqtisadi itkilərə və humanitar böhrana" gətirib çıxara bilər. "Sülh yolu ilə həll, əksinə, sabitliyin bərpasına, investisiyaların cəlb edilməsinə və Abxaziyanın iqtisadi inkişafına şərait yaradacaq", - deyə o bildirib. TASS agentliyinə müsahibəsində Bjaniya "seçilmiş prezident" olaraq qaldığını bildirib və 15 noyabr hadisələrini "çevriliş cəhdi" adlandırıb. Eyni zamanda, o, əlavə edib ki, müxalifət qarşısına qoyulan şərtləri qəbul edərsə, hələ də güzəştə getməyə hazırdır. "Qoy onlar nümayiş etdirsinlər ki, xalq onları seçkilərdə dəstəkləyir", - deyə Aslan Bjaniya bildirib. Görünən budur ki, Bjaniya istefasından sonra yenidən prezident seçkilərinin keçirilməsini istəyib...

Etirazçılar isə Abxaziya parlamentinə xüsusi müraciət ediblər. Onların fikrincə, parlament hazırda "respublikada" "yeganə qanuni orqandır" və tam məsuliyyəti öz üzərinə götürməyə borcludur".



### Moskva narahatdır...

Moskva da böhranla bağlı narahatlığını ifadə edib. Noyabrın 18-də Kremlin mətbuat katibi Dmitri Peskov brifinqdə bildirib ki, Rusiya Abxaziyada vəziyyətin normallaşmasının tərəfdarıdır. "Əlbəttə, biz respublikada vəziyyətin tezliklə normallaşmasının tərəfdarıyıq və istərdik ki, bu vəziyyət tamamilə konstitusiya ilə nizamlansın", - o, brifinqdə deyib.

O, həmçinin Rusiya Federasiyası ilə Abxaziya arasında ikitərəfli münasibətləri Rusiyanın xarici siyasətinin mühüm prioriteti adlandırıb.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə bildirib ki, müxalifət münaqişəni gücləndirir və hüquqi çərçivədən kənara çıxır, etirazlar isə Abxaziyanın inkişafına mane olur. Etirazlarla əlaqədar Xarici İşlər Nazirliyi ruslara Abxaziyaya səfərdən çəkinməyi, artıq onun ərazisində olanlara isə "ehtiyatlı olmağı, iğtişaşların olduğu yerlərə yaxınlaşmamağı və mümkünsə ölkəni tərk etməyi tövsiyə edib. "

Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi də oxşar çağırış edib. Həmçinin turoperatorlara Abxaziyaya turların təşkilini dayandırmağı və planlaşdırılan səfərləri ləğv edən müştərilərin kompensasiyasını ödəməyi tövsiyə edib.

### Abxaziya iqtisadiyyatının 72 faizi...

Qeyd edək ki, 1992-1993-cü illərdə Gürcüstan hökumət qüvvələri ilə Abxaziya separatçı qüvvələri arasında baş vermiş hərbi qarşıdurmalardan sonra 1994-cü il mayın 14-də Gürcüstan və Abxaziya tərəfinin Moskvada BMT baş katibinin Xüsusi Elçisinin rəhbərliyi ilə münaqişənin həlli ilə bağlı Cenevrə danışıqları çərçivəsində hazırlanmış Atəşkəs və Qüvvələrin Ayrılması Sazişi imzalandı. Sazişə əsasən o dövrdən bölgədə sülhməramlı kontingent fəaliyyət göstərir və müharibənin yenidən alovlanmaması üçün nəzarət olunur.

Siyasi mütəxəssislərin fikrincə, hazırkı etirazlara səbəb kimi göstərilən investisiya sazişi olmadan da Abxaziya iqtisadi cəhətdən Rusiyadan çox asılıdır - belə ki, Abxaziyanın keçmiş "xarici işlər naziri" İnal Ardzinba 2023-cü ildə bildirmişdi ki, Moskva 2008-ci ildən Suxuma 110 milyard rubla yaxın maddi yardım vəsaiti yönləndirib. Bundan əlavə, 2023-cü ildə tanınmamış respublikanın ümumi xarici ticarət dövriyyəsinin 72 faizi Rusiyanın payına düşüb. Həmçinin Abxaziya üçün müxtəlif imtiyazlar, o cümlədən payız-qış aylarında Rusiya Federasiyasından elektrik enerjisinin pulsuz tədarükü tətbiq edilib. Rusiyanın iqtisadi inkişaf nazirinin müavini Dmitri Volvaç mart ayında qeyd edib ki, təkcə 2024-cü ildə Rusiyanın Abxaziyaya maliyyə yardımının həcmi 5,6 milyard rubl təşkil edib. Bu mənada, Rusiya tərəfi sözügedən investisiya sazişinin Abxaziya üçün təhlükə yaratmadığını bildirib.

### Etirazçılardan Gürcüstan prezidentinə cavab...

Etirazların təşkilatçısı sayılan "Abxaz Xalq Hərəkatı"nın rəhbəri, tanınmamış Abxaziyanın keçmiş iqtisadiyyat naziri Adqur Ardzinba Gürcüstan prezidenti Salome Zurabişvilinin etirazçılara ünvanladığı bəyanatı şərh edib. O, Gürcüstan prezidentinin bu müraciətinin heç də Abxaziya üçün "ümid" olmadığını deyib: "Mən həmişə olduğu kimi, öz mühakimə və qiymətləndirmələrində reallıq və sağlam düşüncəni deyil, milli mifologiyanı rəhbər tutan Gürcüstan Prezidentinə xatırlatmaq istərdim ki, Abxaziya Respublikası öz müqəddəratını müstəqil şəkildə təyin edən azad ölkədir. Bu baxımdan, xanım Zurabişvilinin kiminlə və nəyin uğrunda həmrəylik nümayiş etdirdiyi müəmmalı olaraq qalır, onunla nəinki Vətənimizin bu günü və gələcəyi, hətta də həyatına, siyasətinə, yəqin ki, mənəviyyatına da çox fərqli baxışlarımız var", - deyə Ardzinbanın şərhində deyilir.

O, həmçinin bir daha vurğulayıb ki, abxaz müxalifətinin hərəkətləri anti-Rusiya xarakteri daşımır.

*P.İSMAYILOV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Kişilər də zorakılıq qurbanı olur...

## Beynəlxalq Kişilər Günüdür




Qadınlara qarşı fiziki və psixoloji zorakılıq halları mütəmadi olaraq gündəmə gətirilir. Belə hallar istər Azərbaycanda, istərsə də digər ölkələrdə tez-tez qarşılaşdığımız hadisələrdəndir. Etiraf edək ki, "zorakılıq" sözü işlənərkən, ağla ilk gələn məhz qadınlar olur. Ancaq bu bir faktdır ki, dünyada artıq kişilərə qarşı da aqressiya artan tendensiya ilə davam edir.

### Kişilər də şiddətə məruz qalır...

BMT-nin son illər apardığı araşdırmalara görə, ailədaxili və məişət zorakılığı zamanı qurban rolunda kişilərin sayı çoxalmağa doğru gedir. ABŞ Ədliyyə Departamentinin məlumatına əsasən, qadınların həyat yoldaşları ilə mübahisə zamanı 2,5 dəfə daha çox bıçağa əl atdığı, 2 dəfə çox isə öz partnyorlarına ağır xəsarətlər yetirdiyi bildirilir.

Rusiyada və ABŞ-da həyat yoldaşını öldürən hər 100 kişiyə ərini öldürən 75 qadın düşür. Ekspertlər yaxın onilliklərdə bu nisbətin bərabər olacağını iddia edir. Böyük Britaniyada 2018-ci ildə keçirilən sorğu zamanı rəyi soruşulan 38 faiz qadın və 24 faiz kişi tərəf müqabilinə fiziki şiddət göstərdiyini etiraf edib.

Statistikaya görə, 40 milyon əhalisi olan Keniyada 2,1 milyon kişi qadınlar tərəfindən fiziki və psixoloji şiddətə məruz qalır. Keniyalı sosioloqlar işsiz və yaşı 40-ı keçmiş kişilərin daha çox istismar edildiyini bildirirlər. Ölkədə qadınlar ərlərini aldadır, onları ev işlərini görməyə və uşağa baxmağa məcbur edirlər.

### Kişi sığınacaqları olan ölkələr

Artıq bir çox ölkələrdə kişilərin hüquqlarını müdafiə komitələri və kişi sığınacaqları var. Məsələn, Türkiyədə, İsveçrədə, ABŞ-da, Almaniyada, Kanadada, Niderlandda zorakılığa məruz qalan kişilər üçün xüsusi sığınacaqlar fəaliyyət göstərir. Bu sığınacaqlara hansısa fəlakətdən çətin vəziyyətə düşən, cinsi oriyentasiyasına görə təzyiqə məruz qalan kişilər də sığına bilər.

Türkiyədə kişilər üçün sığınma evlərinin ən məşhuru Konyada yerləşir. Bura müraciət edənlərin böyük əksəriyyəti həyat yoldaşı və uşaqları tərəfindən zorakılığa məruz qalmış kişilərdir. İldə ən azı 400-500 nəfər yardım məqsədilə buraya müraciət edir, bəziləri isə sığınacağın uzunmüddətli qonağına çevrilir.

### Azərbaycanda vəziyyət necədir?

Digər ölkələrlə müqayisədə Azərbaycanda kişilərə qarşı zorakılıq halları azdır. Ancaq ölkəmizdə kişilər daha çox psixoloji zorakılığa məruz qalırlar. Belə ki, bəzən ahıl kişilər öz gəlini, həyat yoldaşı, hətta nəvəsi tərəfindən fiziki zorakılığa məruz qalır. Həmin yaşlarda onlar fiziki cəhətdən özlərini qoruya bilmir, yaxud sağlamlıq imkanları məhdud olur. Bu səbəbdən zorakılıqla qarşılaşa bilirlər.

Respublikamızda hər il məişət zorakılığı ilə bağlı təxminən 850-yə qədər cinayət işi qeydə alınır. Belə ki, son bir neçə il ərzində zorakılıq hallarının 86 faizi qadınlara qarşı törədilib. 14 faiz zorakılıq halı isə kişilərə qarşı olub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin açıqlamasında bildirilir ki, məişət zorakılığının baş verməsinin səbəbləri əsasən ailədaxili söz-söhbətlərdir. Kişilərə qarşı baş verən məişət zorakılığında daha çox kişinin ailə vəzifələrini yerinə yetirməməsi, evə qazanc gətirməməsi, qayınana və qayınatanın ailədaxili işlərə müdaxilə etməsi, eləcə də sözügedən tərəflərin yola getməməsi və s. səbəb göstərilir.

### 60-dan çox ölkədə qeyd olunan gün...

Yeri gəlmişkən, noyabrın 19-u bütün dünyada Beynəlxalq Kişilər Günüdür. Bu bayramı ilk dəfə 1999-cu ildə Karib dənizinin cənub hissəsində olan ada dövlətləri Trinidad və Tobaqo sakinləri keçiriblər. Dünyanın 60-dan çox ölkəsində qeyd olunan Beynəlxalq Kişilər Gününün keçirilməsində məqsəd onların ailədə və uşaqların tərbiyəsində rolunu artırmaq və onlara qarşı olan diskriminasiyanın qarşısını almaq, kişilərin sağlamlıq məsələlərinə köklənmək, genderlərarası münasibəti təkmilləşdirmək, gender bərabərliyinə yardım etmək və müsbət kişi rolu modelini vurğulamaqdır. Bu, kişilərə qarşı olan ayrı-seçkiliyi nəzərə çatdırmaq və onların cəmiyyət, ailə, evlilik və uşaqların tərbiyəsindəki töhfələrini və naliyyətlərini qeyd etmək üçün bir təşəbbüsdür. Əsas məqsəd isə insani dəyərləri önə çəkməkdir.

***Yeganə BAYRAMOVA***

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı İlham Məmmədova anası

**NAZXANIM MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.




# "Nar"ın dəstəyi ilə keçirilən ekologiya təlimi beynəlxalq ekspertlə görüşlə yekunlaşdı

Sərfəlilik strategiyası ilə yanaşı, sosial məsuliyyət prinsiplərinə də önəmlə yanaşan "Nar"ın dəstəyi ilə jurnalistlər üçün təşkil olunan ekologiya mövzusunda beynəlxalq təlim uğurla yekunlaşıb. "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İB-nin təşkil etdiyi təlimin sonunda iştirakçılara beynəlxalq eko-sertifikatlar təqdim edilib. Təlim nəticəsində media nümayəndələri COP29 konfransında daha hazırlıqlı iştiraklarını təmin ediblər.

İki gün davam edən onlayn sessiyalardan sonra təlimin son günündə təlimçi - ekologiya mövzusu üzrə beynəlxalq ekspert və COP konfranslarının daimi iştirakçısı Tais Gadea Lara jurnalistlərlə səhər yeməyində görüşüb. Görüş zamanı Lara və media əməkdaşları ölkəmizin ev sahibi olduğu COP29 konfransı ilə bağlı müzakirələr aparıb, təəssüratlarını bölüşüblər.

Qeyd edək ki, 3 gün davam edən təlimdə media nümayəndələrinə qlobal istiləşmə, iqlim dəyişikliyi layihələrinin hazırlanması və büdcə idarəetməsi barədə geniş məlumat verilib. Bu biliklər jurnalistlərin hazırda davam edən COP29 konfransında müzakirə olunan mövzulara daha dərindən yanaşmalarına və ekoloji mövzuları mediada peşəkar şəkildə işıqlandırmalarına imkan yaradıb.

"Nar" bu təşəbbüsü ilə ESG (ətraf mühit, sosial məsuliyyət və korporativ idarəetmə) prinsiplərinə və iqlim dəyişikliyi ilə mübarizədə medianın maarifləndirici roluna dəstəyini nümayiş etdirir. Mobil operatorun korporativ sosial məsuliyyət çərçivəsində gerçəkləşdirdiyi bütün layihələr haqqında buradan ətraflı məlumat əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## *İdman*

### COP29: "Liverpul"un nümayəndəsi strateji dayanıqlılıq mövzusunda seminar keçib

Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Meydandan kənar: "Liverpul" Futbol Klubundan 5 Strateji Dayanıqlılıq Dərsi" mövzusunda seminar keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə "Liverpul"un İctimai təsir üzrə direktoru Rişi Jain iştirakçılara inqilabi "The Red Way" strategiyası vasitəsilə idman və dayanıqlılıq sahəsində lider olmağın yollarını izah edib. O, klubun dayanıqlılıq yolundakı beş əsas dərsini iştirakçılarla bölüşüb.



Bildirilib ki, bu dərslərə başlanğıc addımları atmaq, dəyişikliyin həyata keçirilməsi və tərəqqinin izlənməsi, ünsiyyət, həmkarları və azarkeşləri cəlb etmək, həm təsir yaradan, həm də kommersiya baxımından böyüməni təşviq edən tərəfdaşlıqlar qurmaq, davamlı liderlik nümayiş etdirmək kimi əsas strategiyalar daxildir.

İqlimlə bağlı mövzularda daim həssas davranan, inkişaf edən və hazırda dünya futbolunda dayanıqlılıq lideri olan "Liverpul"un meydandan kənarda dəyişikliyi necə irəli sürdüyü, yalnız idman deyil, sosial məsuliyyət sahəsində də müxtəlif layihələr həyata keçirdiyi vurğulanıb. Dünyanın ən çox izlənən futbol komandasının davamlılıq, bərabərlik, müxtəliflik və inklüzivliyin inkişafında əsas fiqura hesab edilən R.Jain bu layihələrin həm yerli, həm də qlobal icmaların rifahını yaxşılaşdırmaq baxımından əhəmiyyətindən danışıb.

Nəticədə iştirakçılar interaktiv seminarda praktik məlumatlara yiyələnib, öz təşkilatlarında tətbiq edə biləcəkləri konkret addımlar barədə informasiya əldə ediblər.




### Azərbaycan qılıncoynadanları beynəlxalq turnirdə 2 medal qazanıblar

Azərbaycan qılıncoynadanları Türkiyənin Konya şəhərində keçirilən şpaga növü üzrə gənclərin açıq turnirində qızıl və bürünc medal qazanıblar.

Azərbaycan Qılıncoynatma Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Xədicə Həsənli qızların şəxsi yarışında 100-dən çox iştirakçı arasında bütün görüşlərini qalib başa vuraraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Daha bir təmsilçimiz Mirxətai Məmmədov isə oğlanların şəxsi mübarizəsində mükafatçılar sırasında yer alıb. Yarımfinala kimi irəliləyən şpaçı finalın bir addımlığında uduzaraq, bürünc medala layiq görülüb.




### "Şəmkir"in yeni baş məşqçisi: "İlk hədəfimiz qarşıdakı 4 turda yaxşı nəticə göstərməkdir"

İlk hədəfimiz qarşıdakı 4 turda yaxşı nəticə göstərməkdir.

Bunu "Report"a açıqlamasında Azərbaycan II Liqasında mübarizə aparan "Şəmkir" klubuna yeni baş məşqçi təyin olunan Vüqar Nadirov deyib.

Mütəxəssis hədəflərlə bağlı dekabrdan sonra rəhbərliklə danışacağını bildirib:

"Dekabrda "transfer pəncərəsi" açılacaq. Komandaya yeni futbolçular cəlb edəcəyik. İlk hədəfimiz qarşıdakı 4 turda yaxşı nəticə göstərməkdir. Mövsümlə bağlı hədəflər üçün isə rəhbərliklə dekabrdan sonra danışacağıq. Bunun üçün kifayət qədər vaxtımız olacaq".




O, çatışmazlıqları aradan qaldırmağa çalışacaqlarını vurğulayıb:

"Şəmkir"ə iş görməyə gəlmişəm. Rəhbərlik, azarkeşlər, komanda baxımından hər şey qaydasındadır. Müəyyən çatışmazlıqlar var və onları aradan qaldırmağa, əlimizdə olan "material"dan istifadə etməyə çalışacağıq. "Şəmkir" köklü, çəkisi olan klubdur. Komanda Çempionlar Liqasında oynayıb, iki dəfə Azərbaycan çempionu olub. Şəmkirdə həmişə futbol olub. İstəyirik azarkeşlər yenə gəlib tribunaları doldursunlar. Hər dəfə məşqlərə 30-40 azarkeş gəlir. Hiss edirəm ki, futbol üçün alışıb-yanırlar. Şəmkir futbol şəhəridir".

Qeyd edək ki, "Şəmkir" Azərbaycan II Liqasında 9 turdan sonra 19 xalla 6-cı pillədə qərarlaşıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4809
Sifariş: 2676
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli